# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

26 İYUL 2019-cu il

№ 130 (4028)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİLƏR GÜRCÜSTANDA BAKI-TİFLİS-QARS ƏLEYHİNƏ TƏXRİBAT PLANININ İCRASINA START VERDİ...

*Gürcüstan dövlətinə daha çox ziyan dəyəcək*

səh. 5

## Azərbaycanın MiQ-29 qırıcı təyyarəsinin gecə uçuşları zamanı dənizə düşməsi ilə bağlı cinayət işi açıldı

səh. 2

## Qafqazda dəyişən geosiyasi vəziyyət Qarabağ münaqişəsi ətrafında yeni durum yaradır

səh. 9

## Fransada mövqelərini bir-bir itirən Ermənistan yeni hərəkətlərə keçdi...

səh. 3

## Azərbaycan diplomatiya tarixində şair, yazıçı səfirlər, konsullar...

səh. 10

## Dünya səhiyyəsində uşaq qidaları ilə bağlı həyəcan siqnalı Azərbaycanda da eşidildi...

səh. 14

## Azərbaycanda əhalinin yeni siyahıya alınması hansı problemləri həll edəcək...

səh. 13

## Müəllimlik Azərbaycanda ən rəqabətli ixtisasa çevrilməyə başlayır, ən savadlı uşaqlar müəllimliyi seçir

səh. 13

## İndiyədək cəmi 116 yarımçıq binaya rəy verilib - prosesin ləng getməsinin səbəbləri...

səh. 15



səh. 3

## Azərbaycanla Ermənistanın hərbi güc reytinqləri arasında inanılmaz fərq...



## Elçibəyi «agent» adlandıran şəxsi Milli Şurada ütüləyərək saxlayanların qəribə «tolerantlığı»...

səh. 4

## «Western Union» təşkilatının qərarı və Rusiyadan pul köçürəcək azərbaycanlılar üçün yeni şərait...

səh. 7



## Qafqaz üçün də təhlükəli olan kürd dövləti kartı yenidən işə salınır...

səh. 6

səh. 8

## Əli Həsənov kütləvi xəyanətdən yazdı: Həmin təxribat...



səh. 11

## DİN-in qeydiyyatla bağlı əhaliyə zəruri müraciətini başqa-başqa istiqamətlərə yozanların yanlışı...



səh. 11

## Nazirliklərin nəzdində ictimai şuralar özünü doğruldurmu...



səh. 12

## Sovet dövrü Azərbaycan tarixinin altını üstünə çevirməyə ehtiyac var



səh. 7

## Azərbaycana avtomobil idxalı iki dəfə artıb - avtomobilə tələbat artıb, alıcılıq qabiliyyəti artıb, ya...



## Azərbaycanın MiQ-29 qırıcı təyyarəsinin gecə uçuşları zamanı dənizə düşməsi ilə bağlı cinayət işi açıldı

**İyulun 24-də, saat 22.00 radələrində, plana uyğun olaraq, gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. Müdafiə Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, ilkin ehtimala əsasən, aviasiya qəzası nəticəsində hərbi təyyarə Xəzər dənizinə düşüb. Pilotun axtarışı və xilas edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir. Müdafiə nazirinin tapşırığına əsasən yaradılan komissiya qəzanın səbəblərinin araşdırılmasına başlayıb.**



Azərbaycan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin qəzaya uğraması ilə bağlı Hərbi Prokurorluqda Cinayət Məcəlləsinin 342.2-ci maddəsi ilə cinayət işi başlanaraq Hərbi Prokurorluğun təcrübəli və peşəkar işçilərindən ibarət istintaq qrupu yaradılıb.

Hazırda Hərbi Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin rəisinin rəhbərlik etdiyi qrup tərəfindən hadisənin baş verməsinin səbəb və şəraitinin, işin bütün hallarının araşdırılması istiqamətində zəruri istintaq hərəkətlərinin icrası intensiv davam etdirilir.

Bildirilir ki, hadisə yeri müəyyən olunaraq baxış keçirilməsi, iş üçün əhəmiyyət kəsb edən predmetlərin götürülməsi, hadisə şahidlərinin dairəsi müəyyən edilərək onların dindirilməsi, müvafiq ekspertizaların keçirilməsi və eləcə də digər zəruri istintaq hərəkətlərinin icrası təmin edilməklə, qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlər görüləcək.

Qeyd olunub ki, Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev də istintaq qrupu ilə birlikdə hadisə yerinə gedib.

Müdafiə Nazirliyi Xəzər dənizinə düşən MiQ-29 qırıcı təyyarənin axtarışına Hərbi-Dəniz Qüvvələrinin gəmiləri və Hərbi-Hava Qüvvələrinin helikopterlərini cəlb edib. Baki-xeber.com bu barədə nazirliyin mətbuat katibi Vaqif Dərgahlıya istinadən məlumat verib.

"Hərbi-Dəniz Qüvvələrinin gəmiləri və Hərbi-Hava Qüvvələrinin helikopterləri axtarış-xilasetmə əməliyyatlarına cəlb olunub", - Dərgahlı "İnterfaks-Azərbaycan"a bildirib.

Müdafiə Nazirliyinin rəhbərliyi, aidiyyəti qurumların və xidmətlərin nümayəndələrindən ibarət qrup qəzanın səbəblərinin araşdırılması və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə yaradılan əməliyyat qərargahında olub. Bu barədə "Trend" Müdafiə Nazirliyinə istinadən xəbər verir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Nazir digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyətin davam etdirilməsi barədə müvafiq göstəriş verib.

*Baki-xeber.com*

# Ağcabədidə yol tikintisinə 7,6 milyon manat ayrıldı...

**Prezident İlham Əliyev Ağcabədi rayonunun Boyat-Biləyən-Hacılar-Qaraxanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**



Sərəncama əsasən, beş min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Boyat-Biləyən-Hacılar-Qaraxanlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 7,6 milyon (yeddi milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.

Maliyyə Nazirliyinə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

# ADA Universitetində rektor Hafiz Paşayevin Sosial Tədqiqatlar Mərkəzinin kollektivi ilə görüşü keçirildi

**24 iyul 2019-cu il tarixində ADA Universitetində Sosial Tədqiqatlar Mərkəzinin (STM) kollektivi ilə görüş keçirildi. Görüşdə ADA Universitetinin rektoru, xarici işlər nazirinin müavini Hafiz Paşayev, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə iştirak ediblər.**



Görüş zamanı STM İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc rəhbərlik etdiyi Mərkəzin missiyası, qarşısında duran vəzifələri, fəaliyyət istiqamətləri və formalaşmaqda olan yeni kollektivi haqda ətraflı məlumat verib.

Millət vəkili bildirib ki, dövlətimizin başçısı ölkədə dövlət-vətəndaş münasibətlərinin daha da təkmilləşməsinin vacibliyini nəzərə alaraq, Mərkəzin yaradılması haqda qərar verib. Azərbaycanda cəmiyyət və dövlət arasında mövcud olan etimad və dialoqun möhkəmlən- dirilməsinin başlıca istiqamətlərindən olan ictimai rəy institutunun ən müasir dünya təcrübəsi əsasında formalaşdırılmasını, bu sahənin elmi ənənəyə çevrilməsini zəruri hesab edib. İctimai rəy nümunəsində dövlət quruculuğu işinə bütün cəmiyyətin fəal cəlb edilməsi STM-in görəcəyi işlərin əsas xəttini təşkil edəcək.

Qonaqları salamlayan ADA Universitetinin rektoru Hafiz Paşayev istənilən sahədə yeni fəaliyyətin qurulmasının çətin, eyni zamanda, şərəfli məsələ olduğunu vurğulayıb. Bu sahədə ADA-nın yeni yaradıldığı vaxtdan keçdiyi yol və əldə etdiyi təcrübə haqda fikirlərini bölüşüb. Bütün sahələrdə olduğu kimi, əsas məsələlərdən birinin - peşəkar kadrların cəlb edilməsinin, tədqiqatçı kollektivin formalaşmasının olduğunu xatırladıb.

Hafiz Paşayev cəmiyyət həyatında müxtəlif sahələrin uğurlu inkişafının müəyyən edilməsində, ilk olaraq, ictimai rəyin öyrənilməsinin vacibliyini vurğulayıb. Bu baxımdan, kadrların hazırlanmasında ən fundamental sosial institut olan təhsil sahəsinin strateji istiqamət kimi diqqət mərkəzində saxlanmasını tövsiyə edib. ADA-da təhsillə bağlı sosioloji sorğulara mühüm əhəmiyyət verildiyini, bəzi mövzular üzrə universitetdaxili ictimai rəy sorğularının keçirildiyini diqqətə çatdırıb.

Hafiz Paşayev Azərbaycanda kadr hazırlığında, məktəbli və gənclərin gələcək peşə, ixtisas seçiminin müəyyən edilməsində təhsil (məktəb) mühitinin rolunun əvəzsiz olduğunu qeyd edib. Qabaqcıl dünya təcrübəsində ixtisas seçiminin məktəb yaşlarından: zamanın çağırışlarını nəzərə almaqla, ilk növbədə, istedad və qabiliyyətləri aşkara çıxarmağa imkan verən təhsil/məktəb mühitinin formalaşması olduğunu vurğulayıb. ADA Universitetinin rektoru STM-lə bu istiqamətdə birgə tədqiqat layihəsinin həyata keçirilməsini də tövsiyə edib.

Görüşdə rektor Hafiz Paşayev STM əməkdaşlarının suallarını cavablandırıb, müxtəlif məsələlər ətrafında müzakirələr aparılıb.

Sonda STM rəhbəri Z.Oruc qəbul üçün ADA Universitetinin rektoru Hafiz Paşayevə təşəkkürünü bildirib və görüşdə səslənən fikirlərin, birgə tədqiqat layihəsi haqda tövsiyələrin Mərkəzin işi üçün çox dəyərli olduğunu qeyd edib.

ADA Universitetinin rektoru Hafiz Paşayev yeni yaranan Mərkəzə fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycan XİN Türkiyə vətəndaşları üçün viza rejimini ləğv etdi...

**Azərbaycan Xarici İşlər Nazirliyi Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvi ilə bağlı açıqlama yayıb. Nazirliyin Mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, açıqlamada deyilir:**

"Xalqlarımız arasında ortaq etnik-mədəni, tarixi köklərə, qardaşlıq və dostluq, həmrəyliyə söykənən Azərbaycan-Türkiyə əlaqələri ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamına uyğun olaraq ən yüksək səviyyədədir.



Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səyləri ilə ikitərəfli münasibətlərimiz uğurla inkişaf etməkdədir.

Hərtərəfli inkişaf edən Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı ölkələrimiz arasında viza sahəsində əməkdaşlığın dəyərləndirilməsini və xalqlarımızın sərbəst gediş-gəlişinin təmin edilməsi zərurətini şərtləndirir.

Bu baxımdan, Azərbaycan Respublikasına 30 günədək müddətə səfər etmək istəyən Türkiyə Respublikasının ümumvətəndaş pasportuna malik vətəndaşları üçün 1 sentyabr 2019-u il tarixindən etibarən viza tələbi ləğv edilir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinə viza tələbinin ləğvi ilə bağlı nota ünvanlanıb.

Əlavə edək ki, Azərbaycan Respublikası ərazisində 30 gündən artıq qalmaq istəyən Türkiyə Respublikası vətəndaşlarının statusu Azərbaycan Respublikasının müvafiq qanunları ilə tənzimlənir.

Türkiyə Respublikası Hökumətinin qərarına əsasən, bu ölkəyə 30 günədək səfər edən Azərbaycan Respublikası vətəndaşları viza tələbindən azad edilmişdi.

Viza tələbinin ləğvi qərarı Azərbaycan və Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin yüksələn xətlə inkişafına növbəti əsaslı töhfə olacaq".

# Azərbaycanla Ermənistanın hərbi güc reytinqləri arasında inanılmaz fərq...

**Dünya ölkələrinə məxsus orduların 2019-cu il üçün güc reytinqləri açıqlanıb. Ermənistan mediasının dərc etdiyi həmin siyahıda bildirilir ki, ötən illə müqayisədə Azərbaycan bir pillə irəliləyərək 137 ölkə arasında 52-ci yerdə qərarlaşıb. Siyahıya ABŞ başçılıq edir. İkinci yerdə Rusiyadır.**




## *Daşdəmir Əliyev: "Artıq ermənilərin özləri də bu fərqi etiraf etməyə məcburdurlar"*

Çin ordusu isə 3-cü yerdə qeyd edilib. Türkiyə 9-cu, İran 14-cü, Gürcüstan 85-ci yerdədir. Ən maraqlısı budur ki, Ermənistan 12 pillə geriləyərək, 96-cı yerdə qərarlaşıb. Hətta ermənilərin özləri belə, siyahını dərc etməklə Azərbaycandan çox geri qaldıqlarını etiraf etmiş olublar.

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu sorğunu "Global Firepower" təşkilatı keçirib: "Qurum ordu reytinqlərini müəyyən edən etibarlı təsisat sayılır və dünya miqyasında ciddi reputasiyaya malikdir. 2019-cu ilin ən güclü ordularının siyahısını açıqlayıb. Siyahıdakı Ermənistan ordusu ilə Azərbaycan Silahlı Qüvvələri arasındakı kəskin fərqin göstərilməsi təəccüblü deyil. Bu elə kənardan da aydın görünür. Əvvəla Azərbaycanın hərbi büdcəsi az qalır Ermənistanın ümumi büdcəsi qədər olsun. Bu amil ordular arasındakı fərqi aydın göstərir. Bundan əlavə, Ermənistan ordusundakı fərarilik faktlarının kütləvi hal almasını elə həmin ölkənin rəhbərliyi etiraf edirsə, bu da əlavə müqayisə imkanı yaradır. Bilmək lazımdır ki, Azərbaycan Ordusunun təlim mərkəzlərində dünyanın ən qabaqcıl, müasir ordularının döyüş və mənəvi-psixoloji hazırlıq üsullarından istifadə edilir.

Bu istiqamətdə bir çox böyük dövlətin Azərbaycanla hərbi əməkdaşlıq sahəsində imzaladığı müqavilələr xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Ordusu NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan bütün tədbirlərdə, təlimlərdə fəal iştirak edərək, dünya dövlətlərinin ordu quruculuğu sahəsində qabaqcıl təcrübəsinə yiyələnir. Məhz 2016-cı ilin aprelində Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və 2018-ci ilin mayında Naxçıvanda həyata keçirilən əks-həmlə əməliyyatlarında qazanılan uğurlar Ali Baş Komandanın diqqət və qayğısı ilə orduda həyata keçirilən kompleks islahatlar nəticəsində mümkün olub. Hər iki tarixi məqam Azərbaycan Ordusunun döyüş hazırlığı, ruh yüksəkliyi, mənəvi-psixoloji durumu və peşəkarlıq baxımından Ermənistan ordusundan qat-qat üstün olduğunu əyani şəkildə sübut etdi. Artıq ermənilərin özləri də bu fərqi etiraf etməyə məcburdurlar. Mənə elə gəlir ki, onlar həm də bu göstəricilərdən nəticə çıxarmağı bacarmalıdırlar.

*"Onlar həm də bu göstəricilərdən nəticə çıxarmağı bacarmalıdırlar"*

Bilməlidirlər ki, işğaldan əl çəkməsələr, aralarında çox ciddi güc fərqi olan iki ordu üz-üzə gəlməli olacaq. Nəticəsini özləri yaxşı proqnozlaşdıra bilərlər.

Çünki Azərbaycan üçün başqa şans qoymurlar. Bizim də səbrimizin həddi-hüdudu var. Ölkəmiz öz ordusuna arxayın olduğu üçün, ermənilər qarşısında tələbini konkret qoyur və birmənalı olaraq deyir ki, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı məsələ müzakirə mövzusu ola bilməz. Ümidvaram ki, biz yaxın zamanlarda ordumuzun reytinqlərdə açıqlanan qüdrətini hərb meydanında da görə biləcəyik".

*Məhəmmədəli QƏRİBLİ*

# Fransada mövqelərini bir-bir itirən Ermənistan yeni hərəkatlərə keçdi...

**Ermənistan Prezidenti Armen Sarkisyan Fransaya işgüzar səfərə yola düşüb. Erməni mətbuatının yazdığına görə, Sarkisyan Parisdəki bir sıra fransız şirkətlərinin rəhbərləri ilə görüşərək onları Ermənistana səfərə gətirmək, yeni əməkdaşlıq imkanları ilə tanış olmaq və investisiya qoyuluşu üçün əməli addımlar atmaq üçün görüşlər keçirəcək.**



## *Rəsul Cahangirli: "Fransa şirkətlərinin Ermənistana sərmayə qoyması real görünmür"*

Görünən odur ki, Ermənistan son illər Fransa şirkətlərinin Azərbaycana artan marağından narahat olmağa başlayıb. Məsələ ondadır ki, Fransa şirkətləri iqtisadi və hərbi sahədə Azərbaycanla əməkdaşlığa xüsusi maraq göstərirlər. Azərbaycan Avropa İttifaqının aparıcı ölkələrindən biri olan Fransa ilə əlaqələrin inkişafına hər zaman xüsusi önəm verib. Nəzərə almaq lazımdır ki, Azərbaycan Fransanın Cənubi Qafqaz regionu üzrə əsas ticarət tərəfdaşıdır. Təsadüfi deyil ki, 2018-ci ildə Fransanın Cənubi Qafqazın 3 ölkəsi ilə ümumi dövriyyəsinin 62,4%-i məhz Azərbaycanın payına düşüb. 2019-cu ilin ilk 5 ayında iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 53 faizdən çox artıb. Azərbaycanda sənaye, xidmət, rabitə, ticarət, bank və sığorta, kənd təsərrüfatı sahələrində 45 Fransa kapitallı şirkət fəaliyyət göstərir. Fransa şirkətləri Azərbaycanda həyata keçirilən və dəyəri 6,2 milyard dollar olan layihələrdə podratçı qismində iştirak ediblər. Bu günlərdə Fransa Şirkətlər Hərəkatının (MEDEF) nümayəndə heyətinin Bakıda səfərdə olması böyük marağa səbəb oldu. Nümayəndə heyətinə 12 sahəni əhatə edən 45 şirkətin 70 nəfər əməkdaşı daxil olub. Bu, Fransa sahibkarlarının Azərbaycana marağının necə yüksək olmasının göstəricisi idi. Onu da qeyd edək ki, Fransa iqtisadi gücünə görə Avropa İttifaqının ilk üçlüyünə daxildir. İqtisadi əlaqələrin bu səviyyədə inkişafı isə, istər-istəməz, siyasi, diplomatik münasibətlərə də müsbət mənada təsir edir.

Görünən odur ki, Ermənistan tərəfi Fransanın Azərbaycana belə böyük maraq göstərməsini həzm edə bilmir. Fransa məhkəmələrinin separatçı qurumla bağlı məlum qərarından sonra mövqelərini bu ölkədə itirən Ermənistan indi iqtisadi sahədə revanşlar edir. O baxımdan, Fransa şirkətlərinin Ermənistana dəvət edilməsi ilə bağlı cəhdlər nə dərəcədə effekt verə bilər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Armen Sarkisyanın bu yöndə səyləri çətin ki, səmərəli olsun: "Ona görə ki, zatən, Fransada erməni lobbisi güclü olub. İki ölkə arasında yaxın münasibətlər var. Ermənistan iqtisadi baxımdan Fransa şirkətləri üçün cəlbedici olsaydı, bu neçə ili onlar bu ölkəyə ciddi sərmayə qoyardılar. Buna nə mane olurdu ki? Deməli, bununla bağlı Ermənistanda perspektiv olmadığı üçün, Fransa şirkətləri indiyə qədər xüsusi aktivlik göstərməyiblər. Belə olan halda, Armen Sarkisyan bundan sonra nəyisə dəyişə bilməyəcək. İndidən aydın görünür ki, Sarkisyanın bu yöndə cəhdləri uğursuz olacaq. Nəzərə almaq lazımdır ki, Fransa şirkətləri iqtisadi baxımdan Cənubi Qafqazda hansı ölkələrin cəlbedici olduqlarının fərqindədirlər. Bu sırada Azərbaycanla Gürcüstan daha yaxşı mövqedədirlər. Azərbaycanda böyük layihələr həyata keçirilir. Gürcüstanın başlıca üstünlüyü isə açıq dənizə çıxışının olması ilə bağlıdır. Bunların heç biri Ermənistanda yoxdur. Belə olan halda, Fransa şirkətlərinin Ermənistana sərmayə qoyması real görünmür".

*"İndidən aydın görünür ki, Sarkisyanın bu yöndə cəhdləri uğursuz olacaq"*

*Vidadi ORDAHALLI*

**Bu günlərdə xaricdə yaşan hüquq müdafiəçisi Leyla Yunusun eks-prezident Əbülfəz Elçibəy haqda tənqidi fikirlər işlətməsi ciddi rezonans doğurub. Leyla Yunusa hətta hakimiyyətin kursunu müdafiə edən şəxslər tərəfindən belə sərt cavablar verilib. Ancaq maraqlıdır ki, Leyla Yunusun AXCP-nin orbitində olan Milli Şura adlı bir qurumda təmsil olunduğu və hələ də onunla bağlı hansısa ölçünün götürülmədiyi bildirilir.**

# Elçibəyi "agent" adlandıran şəxsi Milli Şurada ütüləyərək saxlayanların qəribə "tolerantlığı"...



Nə qədər qəribə olsa da, Leyla Yunus Milli Şurada təmsil olunur və qurumun rəhbərlərindən biri sayılır. Əli Kərimli və Milli Şuranın Koordinasiya Mərkəzi isə susur. Özlərini Rəsulzadə-Elçibəy siyasi-ideoloji xəttinin davamçısı adlandıran Milli Şura qurumun sədri Cəmil Həsənlinin o qədər də təsirli olmayan çıxışı ilə kifayətlənərək hələ də ortaya ciddi mövqe qoymayıb. Digərlərinə qarşı görülən cəzalandırma metodları, məsələn, üzvlükdən çıxarma Leyla Yunusa tətbiq edilmir. Halbuki, bundan əvvəl Milli Şuranın Koordinasiya Mərkəzi fərqli mövqeyinə görə Mehriban Vəzir, Sahib Kərimli və digər şəxsləri qurumdan kənarlaşdırıb.

Digər üzvlərdən fərqli olaraq, Milli Şurada onsuz da heç bir əməli fəaliyyəti olmayan Leyla Yunusun hələ də qurumda saxlanması, hətta ona müxtəlif səviyyədə etirazların belə olduqca ehtiyatlı ifadələr seçilməklə edilməsi, dözümlü yanaşmanın arxasında hansısa ciddi maraqların dayandığı şübhəsizdir. Leyla Yunus niyə Milli Şuradan çıxarılmır?

Maraqlıdır ki, Milli Şura rəhbərliyində təmsil olunan şəxslərə bu sualla etdiyimiz müraciətə onlar tərəfindən cavab verilmədi.

Qurumda təmsil olunan AXCP-nin mətbuat xidmətinin rəhbəri Natiq Ədilov bizimlə söhbətində Leyla Yunusun Milli Şura üzvü olduğu ilə bağlı xəbəri təsdiqlədi, ancaq onun qurumdan çıxarılması üçün əllərində əsasın olmadığını dedi: "Axı bu, fikir azadlığına zidd olardı. Milli Şura sənədlərində buna görə üzvün xaric olunma bəndi yoxdur. MŞ AXCP deyil ki. O təsis olunanda belə müxtəlif baxışa sahib adamı qəbul edib. Hə, bu fəaliyyət davamlı olsa, ümumi işə zərər törədən işə cevrilsə, MŞ bu və başqa üzvün fəaliyyətinə baxa bilər. Amma indilikdə bir söz deyib, hamı da qiymət verib".

Maraqlıdır, Leyla Yunusun Milli Şurada təmsil olunmasına Elçibəy irsinin davamçıları olan digər partiyaların nümayəndələri necə baxırlar?

***Natiq Ədilov: "Milli Şura sənədlərində buna görə üzvün xaric olunma bəndi yoxdur"***

***Xəzər Teyyublu: "Milli Şuranın əlində tam əsas var ki, Leyla Yunusu qurumdan müzakirəsiz xaric etsin"***

Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Leyla Yunusun mövqeyi çox lazımsız idi: "Maraqlıdır ki, Avropanın ən bahalı şəhərində, yaxşı şəraitdə yaşayan bir xanım birdən-birə niyə Elçibəyi təhqir etmək yolunu tutdu? Hesab edirəm ki, onun etdiyi çıxış adi fərdə qarşı yönəlməyib. O, bir dəyəri təhqir edib. Milli Şurada özünü Elçibəy yolunun davamçısı sayan partiyalar, fərdlər varsa, mütləq bu məsələdə mövqelərini ortaya qoymalıdırlar.

Onsuz da həmin adam qurumun heç bir tədbirində iştirak etmir. Milli Şuranın əlində tam əsas var ki, Leyla Yunusu qurumdan müzakirəsiz xaric etsin. Onunla eyni qurumda təmsil olunanlar necə Elçibəyçi sayıla bilərlər? Hesab edirəm ki, qurum konkret mövqeyini ortaya qoymalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

---

**İşğalçı Ermənistanda vəziyyət yenidən qarışır. Hazırda proseslərin gedişi göstərir ki, Paşinyan sabiq prezidenti Robert Köçəryanı həbsdə saxlamaqda, sonuncunun tərəfdarları isə onu azadlığa çıxarmaq üçün müxtəlif vasitələrə əl atmaqda israrlıdır.**

# Köçəryan barədə Avroməhkəmə və Avrokomissiyanın qərarları Ermənistanı bərk silkələyə bilər

### *Fərhad Mehdiyev: "Konstitusiya Məhkəməsi Köçəryanla bağlı vaxtı uzadırsa, deməк, eks-prezidentin xeyrinə nəsə düşünülür"*



Bu durumda Ermənistanın Konstitusiya Məhkəməsi sabiq prezidentin cinayət işi üzrə icraatı dayandırıb və onu məsləhətləşmə aparılması məqsədilə Avropa İnsan Haqları Məhkəməsinə və Venesiya Komissiyasına göndərib. İyulun 18-də qəbul olunan məhkəmə qərarına əsasən, Konstitusiya Məhkəməsi sabiq prezidentin barəsində cinayət işi üzrə yekun qərarı hər iki beynəlxalq hüquq təşkilatının rəyindən sonra verəcək. Bundan əvvəl isə Apelyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin Köçəryanın azadlığa buraxılması qərarını ləğv edib və sabiq dövlət başçısı yenidən həbsxanaya göndərilib. Ermənistanın hüquq-mühafizə orqanları isə birinci instansiya məhkəməsinin hakimini təqib etməyə başlayıblar.

Xatırladaq ki, Köçəryana qarşı 2008-ci ildə Ermənistanda Konstitusiya quruluşunun devrilməsi ittihamı irəli sürülüb. "Qarabağ klanı" isə işin Avropa İnsan Haqları Məhkəməsinə və Venesiya Komissiyasına göndərilməsi fonunda Köçəryanı siyasi məhbus qismində qələmə verməyə başlayıb.

Köçəryan barədə Avroməhkəmə və Avrokomissiyanın verəcəyi qərarın Ermənistana nə kimi təsiri ola bilər? Beynəlxalq hüquq üzrə professor Fərhad Mehdiyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, burada məsələ bir qədər fərqlidir: "Bilirsiniz ki, adlarını çəkdiyiniz iki Avropa qurumunun hərəsinin öz səlahiyyəti var. Həmin qurumların heç biri indiki məqamda Köçəryanla bağlı konkret qərar verə bilməz. Çünki Venesiya Komissiyası üzv ölkələrin qanunvericilikləri ilə bağlı təşəbbüslə çıxış edir. Onlar hazırda Paşinyanın hüquq islahatı adı ilə məhkəmə sistemində etdiklərini pisləyirlər və bununla bağlı konkret tövsiyələr irəli sürüblər. Ermənistan hakimiyyəti həmin tövsiyələrə əməl edib-etməməklə bağlı çıxılmaz durumda qalıb. Çox güman ki, bəzilərinə əməl etmək məcburiyyətindədir. Ancaq həmin islahatlarda Köçəryanla bağlı konkret müddəa yoxdur. Söhbət hakimlərlə bağlı tətbiq edilən məcburi yoxlamalardan gedir. Ermənistan Konstitusiya Məhkəməsinin Köçəryanla bağlı işi Avropanın iki instansiyasına göndərməsi yalnız vaxtı uzatmağa hesablanıb. Çünki məlumdur ki, həmin instansiyaların Köçəryanla bağlı hansısa məcburi qərar vermək səlahiyyəti yoxdur. Avropa İnsan Haqları Məhkəməsinin prinsiplərində belə hallar nəzərdə tutulmur. Bunun üçün Köçəryan bütün daxili instansiyaları keçməlidir. Hökm qanuni qüvvəyə mindikdən sonra Köçəryan şəxsən həmin məhkəməyə Ermənistandan şikayət edə bilər. Bu da bir qədər uzun sürən prosesdir.

Konstitusiya Məhkəməsi Köçəryanla bağlı vaxtı uzadırsa, demək, eks-prezidentin xeyrinə nəsə düşünülür. Çox güman ki, Köçəryanın rəhbərlik etdiyi klan ciddi müqavimət göstərməyi planlayır. Bu yolla olunacaq təzyiqlərin fonunda Paşinyanı geriyə addım atmağa vadar edəcəklər. Təbii ki, Köçəryanla bağlı vəziyyət Ermənistanın daxili sabitliyi üçün ciddi gərginlik vəd edir".

***Məhəmmədəli QƏRİBLİ***

**Regionda həyata keçirilən transmilli layihələrdən kənarda qalan Ermənistan düşdüyü ağır vəziyyətdə daha çox təxribatçı əməllərə can atır. İyulun 23-də fəhlələrin Türkiyədən "Axalkalaki" stansiyasına gələn yükün daşınmasını dayandırması və bu prosesin Ermənistan mediası tərəfindən xüsusi işıqlandırılması da qeyd olunan fonda heç də təsadüfi sayılmır.**

# Ermənilər Gürcüstanda Bakı-Tiflis-Qars əleyhinə təxribat planının icrasına start verdi...

## *Gürcüstan dövlətinə daha çox ziyan dəyəcək*




İddialar səslənir ki, proses məvaciblərin gecikməsinə görə başalyıb.

Məsələ ilə bağlı "Azərbaycan Dəmir Yolları" QSC-nin Gürcüstan filialı "Axalkalaki" dəmir yolu stansiyasında işçilərin tətili ilə bağlı bəyanat yayıb. Bəyanata görə, filialın nümayəndələri və işçilər arasında Axalkalaki dəmir yolu vağzalı ərazisində görüş keçirilib. Görüşdə işçilərin əməkhaqları ilə bağlı yaranan borcun ödənilməsi ilə bağlı məsələ müzakirə olunub. Danışıqlardan sonra işçilər tətili dərhal dayandırıblar. Şirkət maaşların iyulun 24-dən etibarən ödənilməsinə başlanıb. "Azərbaycan Dəmir Yolları" QSC-nin Gürcüstan filialı Bakı-Tiflis-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsinin inşasını həyata keçirir. Baş verənlər fonunda Ermənistanın "168 jam" qəzetinin yazdıqları isə məsələdə erməni izinin olduğunu açıq nümayiş etdirir. Qəzet yazır: "Bakı-Tiflis-Qars dəmir yolu beynəlxalq ambisiyalı layihənin bir hissəsidir, ideyası Gürcüstan vasitəsilə Azərbaycanın və Türkiyənin dəmir yollarını birləşdirmək və bununla da Mərkəzi Asiyadan Cənubi Qafqaz vasitəsilə Avropaya qədər daha ucuz və qısa alternativ nəqliyyat dəhlizi yaratmaqdır. Bu strateji əhəmiyyətli yolun böyük parçası Gürcüstanın daha çox etnik erməni əhalisinin yaşadığı Cavaxetiya regionundan keçir. Əvvəlcədən Cavaxetidə bu layihəyə qarşı idilər. Yerli erməni əhalisi üçün əsas problem ondan ibarət idi ki, Bakı-Tiflis-Qars marşrutu Azərbaycanda fokuslanır və Ermənistanı istisna edir". Elə bu yanaşma prosesdə erməni əlinin olmasının daha bir təzaşürü sayılır. Məsələ ilə bağlı "Kavkazplus" saytı da maraqlı yanaşma sərgiləyir: "23 iyulda Bakı-Tiflis-Qars dəmiryolu magistralı ilə tam həcmli yükdaşıma "işçilərin tətili" görünüşü altında həyata keçirilən faktiki diversiya və sabotajın müşayiəti ilə başladı. Bunların Bakı-Tiflis-Qars layihəsinin gözdən salınması üçün edildiyi və xaricdən koordinasiya olunduğu aydın şəkildə göründü". Dəmir yolunun Axalkalakidən keçən hissəsində 23 iyulda ermənilər tərəfindən tətil adı altında problemlərin yaradılmasına toxunan sayt insidentin yaranmasında Gürcüstandakı erməni separatçılarının aktiv rolu olduğunu və onların ermənilərə maaş verilməməsi bəhanəsindən məharətlə istifadə etdiyini bildirib: "Dəmir yolunun qapadılmasının qarşısını almaq üçün "Dəmiryolservis" şirkəti 24 iyul 14:00-a qədər bütün işçilərin maaşlarını 100% ödəcəyi vədini verdi. Nəticədə işçilər etirazları dayandırdılar və vaqonların yüklənməsini davam etdirdilər, amma nəzərdə tutulmamış fasilə yarandı və gələcəkdə bunun təkrarlanmayacağı ilə bağlı zəmanət yoxdur. Faktiki olaraq Cavaxetiyadakı separatçı hərəkat özünün regionda baş verən proseslərə təsir imkanlarını göstərdi. Bu, erməni millətçiləri və Cavaxetiya separatçılarının təkcə Azərbaycan, Türkiyə və Gürcüstan üçün yox, həm də bütün Avrasiya üçün strateji əhəmiyyət daşıyan dəmiryoluna münasibətdə həyata keçirdikləri göstəriş xarakterli aksiya idi".

Cavaxetiya və yerli sadə ermənilər üçün layihənin dəyərinin böyük olduğunu bildirən sayt həmçinin bunun insanların yaşadıqları bölgələri tərk etməyə imkan vermədiyini də qeyd edib: "Burada paradoks var. Ermənilər bir tərəfdən bu yolun çəkilməsinə düşmən mövqe tutur, digər tərəfdən isə dəmir yoluna xidmət edən şirkətə ancaq yerli ermənilərin götürülməsini tələb edirlər. Hətta bu şirkətlərin ünvanına guya onların işə yalnız türk və azərbaycanlıları götürəcəyinə dair isterik bəyanatlar da səsləndirilmişdi. Belə millətçi isterik bəyanatlara bəhanə verməmək üçün bu şirkətlərin hamısı, o cümlədən "Dəmiryolservis" işə daha çox erməniləri götürməyə başladı. Nəticədə əvvəldən Bakı-Tiflis-Qars magistralı erməni işçiləri arasında əhval-ruhiyyəyə tam nəzarət edən erməni millətçilər və Cavaxetiya separatçılarından asılı vəziyyətə düşdü".

Yerli ermənilərə Rusiyaya gedərək qul kimi çalışan soydaş miqrantlarından daha yaxşı vəziyyət yaradıldığını bildirən sayt onların heç də az maaş almadıqlarını vurğulayıb: "Görünən odur ki, erməni millətçiləri və separatçıları Bakı-Tiflis-Qarsın ciddi şəkildə gözdən salınmasına başlayıblar. Yerli erməniləri provokasiya edərək ən həlledici anda tətilə başlatdılar. Bu, faktiki olaraq diversiya idi. Belə ki, tətil iş prosesində elan edilmir, onun barəsində adətən öncədən xəbərdarlıq edilir. Bu, daha çox sərnişin təyyarəsinin enişindən əvvəl pilotların tətil elan etməsinə bənzəyir. Mövcud diversiya bu provokasiyanın arxasında hansı güclərin olduğunu deyir. Axı Axalkalakidə dəmir yoluna yaxın, xüsusilə yüksək ödənişin olduğu stabil işi tapmaq mümkünsüzdür. Görünür, separatçı strukturlar erməni işçilərə onlara qarşı sanksiya qoyulacağı və ya qovulacaqları təqdirdə hansısa vədlər veriblər. 23 iyuldakı tətil diversiyası göstərir ki, Cavaxetiyada erməni separatizmi Gürcüstanın ciddi problemidir və əgər onunla mübarizə aparılmasa, o, bundan sonra da Gürcüstana və onun beynəlxalq iqtisadi əməkdaşlığına problemlər yarada bilər". Belləiklə, qeyd deilənlərdən aydın görünür ki, ermənilər regionda mühüm əhəmiyyət daşıyan layihə ətrafında yeni qalmaqal yaratmağa çalışır. Bundan ən çox zərər görən tərəflərdən biri isə Gürcüstan özü olacaq. Məhz bu səbəbdən hesab edilir ki artıq rəsmi Tiflis ermənilərlə bağlı əməli addımlar atmalıdır.

**Enyi zamanda onu da qeyd edək ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin Gürcüstan filialı tezliklə fəaliyyətini dayandıracaq və onu burada Türkiyənin "Polat" şirkəti əvəzləyəcək. Ermənistanın "168 jam" qəzeti də etiarf edir ki, yolun Axalkalakidən keçən hissəsində heç də az sayda erməni çalışmır. Elə tətil təxribatını nəsas iştirakçıları da onlardır. Bu mənada belə halların təkrarlanmaması üçün "Polat" şirkətinin daha sərt mövqe sərgiləməsi də vacib sayılır.**

***Nahid SALAYEV***

# Qafqaz üçün də təhlükəli olan kürd dövləti kartı yenidən işə salınır...

**S-400 zenit-raket kompleksinin alışı ilə bağlı ABŞ və Türkyə arasında ziddiyyətlər getdikcə kəskinləşir. Belə görünür ki, Birləşmiş Ştatların prezidenti Donald Trampın qarşı çıxmasına baxmayaraq, Konqress və Pentaqon Türikyəyə qarşı sanksiyalar tətbiq edilməsində israrlıdır.**

Yaranmış vəziyyətdə artıq Birləşmiş Ştatların hərbi-sənaye korporasiyası "Lockheed Martin Corporation" Türkiyənin 2020-ci ildə F-35-lərin istehsalı üzrə proqramdan çıxarılacağını bəyan edib. Şirkətin icraçı direktoru Merilin Hevson qeyd edib ki, Türkiyədə 2020-ci ilin martından F-35-lərin hissələrinin istehsalı dayandırılacaq. Türkiyədə istehsal olunan F-35 qırıcısının hissələri isə Birləşmiş Ştatlarda istehsal olunacaq.

Ağ Ev də vurğulayıb ki, Ankara tərəfindən S-400 zenit-raket komplekslərinin alınması ən yeni ABŞ qırıcılarının tədarükü ilə uyğunsuzluq təşkil edir. Pentaqon rəhbərinin satınalmalar üzrə müavini Ellen Lord bəyan edib ki, Birləşmiş Ştatların Türkiyə ilə F-35 proqramı üzrə əməkdaşlığı dayandırması nəticəsində rəsmi Ankara təxminən 9 milyard dollar investisiya almayacaq: "Türkiyə iş yerlərini və iqtisadi imkanları itirəcək. Türkiyə F-35 təyyarələrinin 900-dən çox detalını istehsal edirdi və bunun üçün 9 milyard dollar investisiya alırdı". Türkiyə F-35-lərlə bağlı proqramdan çıxarılması barədə qərarı ədalətsiz adlandırıb. Amma ABŞ təkcə bununal kifayətlənmək niyyətində deyil və Ankaraya qarşı çoxsayıl sanksiyaları işə salmağı planlaşdırır. Bundan başqa o da məlub olub ki, Vaşinqton kürd kartından da faydalanmağı düşünür. Söhbət kürd terrorçularının yenə silah və sursatla təmin edilməsindən, həmçinin kürd dövlətinin yaradılmasından gedir. Türkiyənin Silahlı qüvvələrinin Baş qərargahının keçmiş rəis müavini Ergin Sayqun bu xüsusda maraqlı açıqlamalar verib. Keçmiş hərbçinin sözlərinə görə, ABŞ Türkiyənin inkişafı və gücləndirilməsini sadəcə istəmir və yalnız İsrailin gücləndirilməsində maraqlıdır: "Yaxın Şərqdə İsrailin təhlükəsizliyi və energetika resursları üzərində nəzarəti təmin etmək Qərb üçün əhəmiyyətlidir. İsrailə düşmən ölkələr ortadan qaldırılır. Bu xəttin sonunda Türkiyə dayanır. Bunu söyləməliyəm, çünki bu həqiqətdir. Türkiyəylə Amerikanın münasibətlərində problemlərin S-400 məsələsindən daha genişmiqyaslı olmasından qorxuram. Fikrimcə, S-400 bunların yalnız kiçik bir hissəsidir". O əlavə edib ki, əgər Ankara və Vaşinqton S-400 üzrə razılaşmaya gəlsə, onda ABŞ Türkiyəyə yeni tələblərini təqdim edəcək. Xüsusi halda, Sayqunun fikrincə, Birləşmiş Ştatlar İranla əlaqələri kəsməyi, Suriyada kürd dövlətini yaratmağı tələb edəcək: "Yəni, fikrimcə, S-400 və ya F-35 problem deyil. Amerika Türkiyənin müstəqil xarici siyasətindən narazıdır və arzu etmir ki, Türkiyə regional dövlət olsun".




Sayqun həmçinin əlavə edib ki, Rusiyanın F-35 təyyarələri haqqında məxfi məlumatları alacağı barədə Vaşinqtonun bəyanatlarının heç bir əsası yoxdur, çünki, bu qırıcıların sirləri Moskvaya çoxdan məlumdur.

Kürd dövlətinin yaradılması ideyası əslində, yeni deyil və ABŞ-ın bu xüsusda planları çoxdan hazırlanıb. İndi S-400 bəhanəsi yenidən bu planların işə düşməsinən rəvac verib. Amma Ankara buna icazə verməyəcəyini bəyan edir. Hətta Türkiyə kürd dövlətinin yaradlılması üçün ABŞ-ın fəal istifadə etdiyi PKK və ona bağlı təşkilatlara qarşı tezliklə hərbi əməliyyatlara start verə biləəcyini də vurğulayır. Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Suriyanın şimalında təhlükəsiz zona yaradılması planı baş tutmazsa, o zaman Ankara öz ərazilərinin təhlükəsizliyini təmin etmək üçün Fərat çayının şərqində hərbi əməliyyatlara başlaya bilər: "Bir ay keçməsinə baxmayaraq, Suriyanın Münbiç bölgəsi ilə bağlı "yol xəritəsi" hələ də hazırlanmayıb". ABŞ-ın Münbiçlə bağlı öhdəliyinin yerinə yetirməməsindən gileylənən nazir vurğulayıb ki, 2018-ci ilin iyun ayında ABŞ-ın dövlət katibi Maykl Pompeo ilə Suriyanın Münbiç bölgəsində təhlükəsizlik bölgəsi yaradılması ilə bağlı razılığa gəliblər.Onun sözlərinə görə, "yol xəritəsi" hələ də hazırlanmayıb: "Həmin təhlükəsiz bölgənin dərinliyi, əraziyə kimin nəzarət edəcəyi və oradan terrorçu PKK, YPG, PYD-nin necə çıxarılacağı bizim üçün həssas mövzudur. Dövlət katibi ilə əldə etdiyimiz razılaşmaya əsasən, bu məsələlərlə bağlı "yol xəritəsi"ni ən azı 90 gün ərzində tamamlamalı idik. Artıq həmin müddətdən bir il bir ay keçib. ABŞ prezidenti Donald Trampın müraciətinə görə, bölgəyə doğru hərəkətimizi dayandırdıq. Həmin ərazidən Türkiyəyə təhdidlər artır. Buna qarşı hazırlıq işləri gördük. Təcili olaraq təhlükəsiz bölgə ilə bağlı razılığa gəlməliyik. Çünki artıq səbrimiz daşıb... Təhlükəsiz bölgə ilə bağlı fəaliyyətə başlanılmasa, Türkiyə olaraq üzərimizə düşəni edəcəyik".

M.Çavuşoğlu bildirib ki, terrorçu qruplaşmalar özlərini gücləndirirlər, ABŞ da onlara silah-sursat verir: "Danışıqlar üçün Vaşinqtona heyətimizi göndəririk. Onlar hərəkətə başlamamağımızı istəyirlər. Ancaq ABŞ-ın Suriya üzrə xüsusi təmsilçisi Ceyms Cefferi ilə danışıqlar keçirilən gün ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının rəhbəri Kennet Makkenzi terrorçu PKK qruplaşmasının dəstə başçılarından olan Şahin Cilo ilə görüşdü. Bu, ABŞ-ın səmimi olmadığının göstəricisidir". İndi məsələnin narahatlıq doğuran tərəflərindən biri Türkiyənin kürd yaraqlılarına qarşı hərbi əməliyyatlara başladığı zaman ABŞ-ın buna mümkün reaksiyası və hətta Ankara ilə hərbi qarşıdurmaya gedə biləcəyidir. Belə vəziyyətdə Rusiya və İran Türkiyənin yanıda yer almağa hazır olduqlarını bildirir. Rusiya Türkiyənin müstəqil geosiyasi güc olmasını, eyni zamanda ABŞ-dan asılı olmayan, lakin Moskvaya bağlı olan dövlət kimi görmək istəyir. Bu durumda Türkiyənin, Rusiyanın, İranın mövqeyini zəiflətmək üçün ABŞ, İsrail İraqın şimalında və Suriyanın şimal-şərqində kürd dövləti qurmaq məsələsinə strateji maraq göstərir. Xatırladaq ki, bu məsələdə işğalçı Ermənistan da ABŞ və İsrailin yanında olduğunu bəyan edib. Hətta o da məlumdur ki, ermənilərin belə vaxtac PKK sıralarında sayı da sürətlə artır. Perspektivdə Ermənistan kürd dövdətindən öz təxribatçı məqsədləri üçün yararlanmağı düşünür. Bu da o deməkdir ki, kürd dövləti Qafqaz üçün d ətəhdid mənbəyidir.

**İndi isə görünən budur ki, kürd dövləti məsələsi ABŞ və Türkiyə arasında açıq şəkildə yeni ziddiyyət və qarşıdurma obyektinə çevrilir. Bu, hətta tərəflər arasınad hərbi qarşıdurmaya da gətirib çıxara bilər.**

***Tahir TAĞIYEV***

# "Western Union" təşkilatının qərarı və Rusiyadan pul köçürəcək azərbaycanlılar üçün yeni şərait...

**"Western Union" şirkəti Rusiyadan pul köçürmələrini məhdudlaşdırmaq qərarına gəlib. Şirkət Qazaxıstan, Qırğızıstan, Çin və Vyetnam istisna olmaqla, xarici ölkələrə pul köçürmələrinin miqdarını 30 təqvim günü müddətində 600 min rubla qədər məhdudlaşdırıb. Bu barədə "Western Union"un məlumat mərkəzindən informasiya verilib.**




Buna qədər aprelin 16-dan etibarən Rusiyadan Qazaxıstan, Qırğızıstan, Çin və Vyetnama göndərilən pul köçürməsinin miqdarı 30 gün ərzində 100 min rubl məbləğində məhdudlaşdırılmışdı. Şirkətdən bu addımın pul vəsaitlərinin qanunsuz məqsədlər üçün istifadəsi risqini minimuma endirmək üçün atıldığı vurğulanıb.

Qeyd edək ki, "Western Union" sistemi dünyada ən iri pul-köçürmə sistemi olaraq, bu sahədə liderdir. Bu sistem vasitəsilə istənilən məsafəyə 5 dəqiqə ərzində pul köçürmək mümkündür. "Western Union" ən geniş agent şəbəkəsinə malikdir və 200 ölkədə fəaliyyət göstərir.

Region ölkələrindən, o cümlədən də Azərbaycandan qazanc məqsədilə çoxsaylı vətəndaş Rusiyaya üz tutur. Həmin kateqoriya şəxslər qazanclarının bir hissəsini məhz "Western Union" vasitəsilə ölkəmizə göndərirdilər. Qoyulan məhdudiyyət

## *Elşən Əliyev: "Məhz operativlik və etibarlılıq baxımından soydaşlarımız bu sistemə daha çox müraciət ediblər"*

Rusiyada yaşayan soydaşlarımız və onların buradakı yaxınlarına necə təsir edəcək?

İqtisadçı Elşən Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bizim soydaşlarımızın bu məsələdə narahatlığı üçün əsas yoxdur: "Bilirsiniz ki, sürətli pul köçürmələrində "Western Union" liderlik edir. Belə əməliyyatların aparılması həmin şirkətə də qazanc gətirir. Məsələyə bu məntiqlə yanaşılsa, onda şirkət özü könüllü olaraq qazancından imtina etməz. Deməli, burada başqa səbəblər var ki, həmin şirkət məyyən məhdudiyyətlər tətbiq etməyə vadar olunur. Burada sərt siyasi qərar olsaydı, həmin şirkətin Rusiyadakı fəaliyyətinə birdəfəlik son qoyulardı. Belə deyilsə, deməli, ortada hansısa amillər var ki, onların aradan qaldırılması üzərində iş gedir. Çox güman ki, Rusiya bununla ölkədən pul çıxışını məhdudlaşdırmaq istəyir və bunun iqtisadiyyata müsbət təsirinin olacağını düşünür.

### *"Bu olmayacaqsa, başqa alternativlərə müraciət ediləcək"*

Rəsmi statistikaya nəzər salsaq, Azərbaycana sürətli pul köçürmələri keçən ilin eyni dövrü ilə müqayisədə artıb. Köçürmələrin əhəmiyyətli hissəsi, ənənəvi olaraq, Rusiyadan olunur. Azərbaycanda təcili pul köçürmələri bazarının bir neçə iri oyunçusu var. Agent bankların saylarına görə lider "Western Union" beynəlxalq sistemidir. Sistem fəaliyyətdə olan 24 bankda mövcuddur. İkinci və üçüncü yerləri "Contact" və "Zolotaya Korona" bölüşürlər. Növbəti yerdə operatoru yerli olan "Monex" sistemidir. Göründüyü kimi, ölkəyə əsas pul köçürmələri Rusiyadan edilir, burada da ilk yeri "Western Union" tutur. Bu heç də digərlərindən ucuz tariflə fəaliyyət göstərən şirkət deyil.

Tariflərin strukturuna nəzər salsaq, "Western Union" sistemi üzrə ən yüksək tariflər təqdim olunur. Tarif siyasətinə baxmayaraq, sistemin belə geniş yayılmış olması ilk öncə ən geniş coğrafiyanı əhatə etməsi ilə bağlıdır. Məhz operativlik və etibarlılıq baxımından soydaşlarımız bu sistemə daha çox müraciət ediblər. Ancaq bu olmayacaqsa, başqa alternativlərə müraciət ediləcək. Yəni burada heç bir faciə axtarmaq lazım deyil. İndi elə dövrdür ki, pulun ölkədən-ölkəyə göndərilməsinin müxtəlif variantları var.

Hətta bu imkanlar olduğu halda, "qara bazar" qaydaları ilə pul köçürmələrindən istifadə edilir. Bütün hallarda, müəyyən çətinliklər törədiləcək. Yəni insanlar pul göndərmək üçün müxtəlif üsullar axtarmaq məcburiyyətində qalacaqlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycana avtomobil idxalı iki dəfə artıb - avtomobilə tələbat artıb, alıcılıq qabiliyyəti artıb, ya...

**Bu ilin yanvar-iyun aylarında Azərbaycana 18.740 ədəd müxtəlif təyinatlı avtomobil idxal olunub. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 95 faiz və yaxud təxminən 2 dəfə çoxdur.**



Son bir ildə sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələrinin idxalı 68,3 faiz artaraq 101 ədəd, əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələrinin idxalı 2 dəfə artaraq 16.965 ədəd, yük daşımaq üçün motorlu nəqliyyat vasitələrinin idxalı 62,9 faiz artaraq 1.593 ədəd, xüsusi təyinatlı motorlu nəqliyyat vasitələrinin idxalı isə 24,6 faiz artaraq 81 ədəd olub.

O da məlum olub ki, bu ilin 6 ayında Azərbaycan Gürcüstandan 720 ədəd yük maşını idxal edib. Qonşu ölkədən alınan yük maşınlarının ümumi dəyəri 4 mln. 862,5 min dollar təşkil edib.

İllik müqayisədə Azərbaycanın

## *Nüsrət İbrahimov: "Yəqin bunun səbəbi əhalinin pul gəlirlərinin artmasıdır"*

Gürcüstandan idxal etdiyi avtomobillərin sayı 408 ədəd və ya 2,3 dəfə çoxdur. Ötən ilin birinci yarısında Azərbaycan Gürcüstandan 2 mln. 123,3 min dollar dəyərində 312 ədəd yük maşını idxal edib.

Qeyd edək ki, 2014-cü ildən başlayaraq ölkəyə avtomobil idxalı azalırdı. Bu, sonrakı illərdə də özünü göstərdi. Devalvasiyadan sonra isə azalma bir qədər də artdı. Ancaq 2018-ci ildən başlayaraq avtomobil idxalında artım tendensiyası müşahidə olunmağa başladı. Ancaq bu ilin 6 ayında daha çox avtomobilin idxal olunduğu diqqəti çəkir.

Maraqlıdır, avtomobil idxalının 2 dəfə artması nə ilə bağlıdır? Avtomobillərə tələbat və ya əhalinin alıcılıq qabiliyyəti artıb? Yoxsa bunun digər səbəbləri var?

### *"...alıcılıq qabiliyyətinin yüksəlməsinə öz təsirini göstərir"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimov avtomobil idxalının artmasını bir sıra amillərlə əlaqələndirdi: "Bunun konkret səbəbini dəqiq demək çətindir. Reallıq ondan ibarətdir ki, əvvəlki illərdə avtomobil idxalının həcmində azalma müşahidə edilirdi. Xüsusən də 2015-2016-cı illərdə avtomobil idxalının azalması daha böyük idi. Bu səbəbdən, bir növ, bazarda avtomobillərlə bağlı bir boşluq yaranmışdı. 2017-ci ildən başlayaraq avtomobil bazarında bir canlanma müşahidə olunmağa başladı. Həmin ilin sonundan başlayaraq bazarda pul kütləsi artmağa başladı. Pul artdıqca, bu, bazarda özünü göstərməyə başladı. Bu tendensiya 2018-ci ildə də davam etdi. 2019-cu ildən başlayaraq avtomobil idxalı bir qədər də artdı. Yəni 2018-ci illə müqayisədə daha sürətlə idxal artmağa başladı. Yəqin bunun səbəbi əhalinin pul gəlirlərinin artmasıdır. Çünki əhalinin pul gəlirləri artanda bu, alıcılıq qabiliyyətinin yüksəlməsinə öz təsirini göstərir. Ancaq, ümumilikdə, bu gün avtomobil bazarında alqı-satqıda elə bir aktivlik hiss olunmur. Hansı ki, ilin əvvəlində aktivlik daha yüksək idi".

***Vidadi ORDAHALLI***

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun məqaləsini ixtisarla oxuculara təqdim edirik. Məqalənin tam mətni ilə baki-xeber.com saytında tanış ola bilərsiniz.**

# Əli Həsənov kütləvi xəyanətdən yazdı: Həmin təxribat...

…Hazırda Azərbaycan təkcə Cənubi Qafqazın deyil, postsovet məkanının özünü tam təmin edən qüdrətli bir dövlətinə çevrilib. İndi bu dövlət həm bölgədə, həm də dünyada milli maraqlarına az və ya çox dərəcədə xələl gətirən istənilən təşəbbüsə rahatlıqla "yox" deyə bilir. Bütün bu reallıqlar ölkəmizin nümunəsində güclü lider və peşəkar komandanın necə böyük imkanlara malik olduğunu, ən mürəkkəb vəzifələri belə yerinə yetirmək iqtidarını nümayiş etdirir.

Azərbaycan Prezidentinin və onun peşəkar komandasının sistemli siyasəti, bütün məsələlərdə nümayiş etdirdiyi prinsipial mövqe, əlbəttə ki, bəzən gündən-günə inkişaf edən dövlətimizə rəqib kimi yanaşan xarici aktorların ürəyincə olmur və zaman-zaman ölkəmizə qarşı müəyyən arzuolunmaz təxribatlar törədilir. Əminliklə demək olar ki, dövlət sərhədlərimizdə yaşanmış ən son hadisə olan "Keşikçidağ" insidenti də bu qəbildən olan təxribat idi. Bununla bağlı bir həftə əvvəl kütləvi informasiya vasitələrinə açıqlama verdiyimdən, bir daha həmin mövzuya qayıtmaq istəmirəm. Lakin bu günün özündə də həmin təxribatı səsləndirdikləri yeni-yeni bəyanatlarla davam etdirən AXCP sədri Əli Kərimli və yaxın ətrafının mövqeyi ilə bağlı bəzi məsələlərə qısaca münasibət bildirməyi zəruri hesab edirəm.

Keçən dövrün ictimai-siyasi proseslərinin təhlili bir daha göstərir ki, 1991-1993-cü illərdə ölkəni təhlükəli böhrana sürükləyən və hakimiyyəti itirdikdən sonra radikal müxalifətçilik yolu tutmuş Əli Kərimli və yaxın ətrafı ötən müddətdə də öz səhvlərindən heç bir nəticə çıxarmayıblar, əksinə, radikal antimilli və qeyri-konstruktiv mövqelərini ardıcıl olaraq davam etdiriblər. Bu düşərgənin əsas simaları bəhs etdiyimiz "Keçikçidağ" insidenti zamanı öz mənfur xislətlərini bir daha ortaya qoydular. Hazırda onların gündəlik davranışı sübut edir ki, ümumiyyətlə, bu insanlarda keçən 30 ildə heç bir pozitiv keyfiyyət dəyişikliyi baş verməyib, bütün məsələlərə yenə də eyni prizmadan, yalnız mənfi rakursdan yanaşma xəttini davam etdirirlər. Əli Kərimli və ətrafının bir dəfə də olsun mövcud iqtidarın əldə etdiyi və bütün dünyanın diqqətini çəkən hər hansı bir uğuruna etiraf etməyə cürətləri çatmayıb. Öz inkarçılıq xətlərini şiddətlə davam etdirərək hər şeyi qaralayan, bütün müsbət nəticələri inkar edən bu qaragüruh dəstə elə öz hərəkətlərinə görə də ölkə əhalisinin etimadını qazana bilmir. Azərbaycanda hardasa bir ağacın budağı qırıldı, hardasa leysan yağdı və yaxud sel gəldi, dolu düşdü və əkin-biçinə ziyan dəydi, zəlzələ oldu və hansısa ev xəsarət aldı, elektrik stansiyasında qəza baş verdi, yanğın oldu, avtobus aşdı, xəstəxanada ölüm halı baş verdi, bir vətəndaş intihar etdi - bir sözlə, ölkədə və bütün dünyada mənfi yönlü nə olursa, "mövcud iqtidar günahkardır, hakimiyyət hara baxır",- deyə harayhəşir salırlar, kampaniya aparırlar. İqtidara qarşı təkidlə həyata keçirdikləri belə inkarçılıq xətti onların xislətində elə mənfi fəsadlar yaradıb ki, artıq hakimiyyətlə dövlət arasındakı sərhədləri də çoxdan itiriblər.

Məsələn, baş vermiş son "Keşikçidağ" insidenti barədə müvafiq dövlət qurumları anındaca Azərbaycan Prezidenti cənab İlham Əliyevə məruzə etmiş, məsələ dövlətimizin başçısı tərəfindən xüsusi nəzarətə götürülmüş və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verilmişdir. Bundan başqa, respublikamızın Dövlət Sərhəd Xidməti, Xarici İşlər Nazirliyi və digər müvafiq qurumlar bütün zəruri tədbirləri həyata keçirmiş, "Keşikçidağ" məntəqəsində hadisələrin nəzarətdən çıxmasına imkan verməmiş, orada xidmət göstərən sərhəd dəstəsinin ahəngdar fəaliyyətini bərpa etmişlər. Müvafiq dövlət qurumları baş vermiş hadisə və görülmüş işlər barədə zamanında ictimaiyyətə açıqlamalar verərək, hadisənin təxribat məqsədilə törədildiyini vurğulamışlar. Gürcüstanın bir qrup öyrədilmiş vətəndaşı tərəfindən törədilən həmin hadisə barədə ölkəmizdə fəaliyyət göstərən kütləvi informasiya vasitələri cəmiyyətimizi dərhal yetərincə məlumatlandırmış, ictimaiyyyətin fəal nümayəndələrinin Azərbaycan əsgərinin təxribata çəkilməsinə qarşı səsləndirdiyi haqlı etirazlarını bütün dünyaya yaymışlar.



Bəyanatlarda həm Azərbaycan iqtidarı və cəmiyyətinin, həm də Gürcüstan hökuməti və vətəndaşlarının mütləq əksəriyyəti tərəfindən təəssüflə qarşılanan bu təxribatın xalqlarımız və dövlətlərimiz arasında tarixi qonşuluq münasibətlərinə, strateji tərəfdaşlığa, birgə həyata keçirilən transmilli layihələrə, əməkdaşlıq və yaxşı gələcək uğrunda birgə imkanlara zərər vurmaq üçün planlaşdırıldığı və həyata keçirildiyi qeyd olunmuşdur.

Bir faktı da yada salmaq istəyirəm ki, 2005-ci il oktyabrın 12-də Prezident İlham Əliyev həmin ərazidə Azərbaycan-Gürcüstan sərhədinin mühafizəsi ilə şəxsən tanış olmuş və lazımi tapşırıqlarını vermişdir. 2007-ci il dekabrın 19-da isə Azərbaycan Prezidentinin sərəncamı ilə Ağstafa rayonu ərazisindəki Keşikçidağ silsiləsinin bir hissəsini əhatə edən mağaralar kompleksi Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilmişdir. Bu faktlar bir daha onu göstərir ki, Əli Kərimli və tərəfdarlarının yalançı bəyanatlarının əksinə olaraq, Prezident İlham Əliyev həmişə Azərbaycan torpaqlarının hər qarışına böyük məsuliyyət, məhəbbət və qayğı ilə yanaşır. Elə bu məsuliyyətin, böyük vətən sevgisinin nəticəsidir ki, hazırda Azərbaycan Silahlı Qüvvələri keçmiş hakimiyyətlər dövründə olduğu kimi, "pərakəndə və nizamsız bir hərbi birləşmə"dən ibarət deyil, müasir maddi-texniki təchizata malik olan dünyanın ən güclü əlli ordusu sırasında yer alan ordudur.

İlham Əliyev Prezident seçildiyi gündən bəri Azərbaycan əsgəri Xalq Cəbhəsi hakimiyyətinin dövründən fərqli olaraq, bir metr də olsun torpaq itirməyib, əksinə, şanlı ordumuz 2016-2018-ci illərdə xalqımızın iftixarla xatırladığı hərbi əməliyyatlar keçirərək, işğal olunmuş ərazilərimizin xeyli hissəsini azad edib. İndi Naxçıvanda və Füzuli rayonunda müqəddəs bayrağımızın dalğalandığı strateji yüksəkliklər gələcək döyüşlərdə Azərbaycan əsgərinin qısa vaxt ərzində qələbə qazanması baxımından böyük əhəmiyyətə malikdir.

Tərəfdarlarının sayı "Keşikçidağ"da Azərbaycan əsgərini təxribata çəkmək istəyənlərdən bir o qədər də çox olmayan AXCP sədri Əli Kərimli və ətrafı neçə gün dalbadal həmin insidentin böyüməsinə dəstək verərək, sosial şəbəkələrdə "zəif və iradəsiz hakimiyyət" obrazı yaratmağa çalışdı, dövlət rəsmilərinin bu istiqamətdəki soyuqqanlı qərarlarını, təmkinli, ölçülü-biçili bəyanatları və fəaliyyətini təhrif etdi, əllərinə fırça alaraq Silahlı Qüvvələrimizin reputasiyasına qara yaxmaq istiqamətində xarici şəbəkələrdə əməlli-başlı "rəssamlıq" etdilər. Açıq desək, Azərbaycanı və Gürcüstanı qarşıdurmaya, konfliktə sürükləyərək zəifltəmək, bununla özlərindən asılı vəziyyətə salmaq istəyən qüvvələrin qurduğu bu oyuna əyinlərinə "Milli Şura" forması geyinən Əli Kərimli və dəstəsi məhz təxribatçı rolunda qatıldı. Odur ki, mən, ilk növbədə, siyasi davranışları dövlət və idarəçilik zehniyyətinə tərs mütənasib olan, "bir dövləti qurmağa uzun illər, dağıtmağa isə bir neçə saat lazımdır" həqiqətini hələ də dərk etməmiş Əli Kərimliyə həmin aforizmin müəllifi, məşhur ingilis şairi və siyasətçisi Lord Bayronu oxumağı yox, daha çox öz keçmişinə nəzər salmağı tövsiyə edirəm.

Heç kim unutmayıb ki, Əli Kərimlinin təmsil olunduğu hakimiyyətin Surət Hüseynovun hərbi qiyamının qarşısını almaq üçün Gəncəyə göndərdiyi bütün yüksək vəzifəli şəxslər bir neçə günün içərisində birbirinin ardınca əsir düşdülər. Onlar heç də sərhəddə keşik çəkən gənc əsgər deyildilər, hər biri onlarla silahlı cangüdənlərin müşayiətilə gəzən, dövlətin, xalqın təhlükəsizliyinə cavabdehlik daşıyan "məsuliyyət sahibləri" idilər. Nədənsə, 709 saylı hərbi hissənin heç həndəvərinə çatmamış məsuliyyət hisslərini də, silahlarını da, bəziləri hətta simalarını da itirdilər. Hər halda, Əli Kərimli çox yaxşı xatırlamalıdır ki, onun dövlət katibi olduğu hakimiyyətin baş prokuroru bir silldən sonra öz prezidentinin həbsinə sanksiya verdi. Elə silahdaşlarının məlumatına görə, Əli Kərimlinin özü də Əbülfəz Elçibəyin vəfat etdiyi gün onun birinci müavini ola-ola öz sədrinin əleyhinə "Azadlıq" qəzetində biabırçı yazılar yazdırıb, təhqir dolu məqalələrin yayımlanmasını sifariş edib. Əlbəttə, bu faktdan sonra Əli Kərimli ilə həmin baş prokuror arasında hansısa mənəvi keyfiyyət fərqinin olmadığı aydın görünür. Elə cəsarət fərqindən də çox danışmağa, məncə, ciddi lüzum yoxdur. Çünki 1993-cü ilin yayında Əli Kərimlinin dövlət katibi olaraq Prezident Aparatından çıxmağa saatlara cürət etməməsinin, axırda köməkçisinin arxasında gizlənə-gizlənə xidməti avtomobilinə oturaraq qaçmasının şahidləri hələ ki, sağdırlar...

Bəli, Prezident İlham Əliyev və onun sadiq komandası, Azərbaycanın əksər dövlət qurumları, bütün Silahlı Qüvvələrimiz, hər zaman olduğu kimi, bu gün də müstəqilliyimizin, dövlətçiliyimizin, milli maraqlarımızın keşiyində möhkəm dayanıblar, Əli Kərimlinin timsalında fərarilikləri və xəyanətləri külliaələmə bəlli olan antimilli qruplar və xarici ölkələrin iaşə obyektlərində vurnuxaraq anti-Azərbaycan fəaliyyəti sərgiləyən bəzi azərbaycanlı adını daşıyanlarsa yenə də hakimiyyət eşqindədirlər! Əlbəttə ki, ölkəmizdə fəaliyyət göstərən əksər sağlam müxalifətçilərdən və xaricdə yaşayan vətənsevər soydaşlarımızdan söhbət getmir. Onlar da bu reallığı yaxşı görür və dərk edirlər.

***Əli Həsənov,***
***Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qafqazda dəyişən geosiyasi vəziyyət Qarabağ münaqişəsi ətrafında yeni durum yaradır

**Hərbi güc baxımından Azərbaycanın Ermənistandan kifayət qədər üstün olması və bu fonda Dağlıq Qarabağ münaqişəsini elə güc yolu ilə istənilən an öz maraqları çərçivəsində həll edə biləcəyi bütün dünya miqyasında etiraf edilən həqiqətdir. Belə bir vaxtda yenə beynəlxalq miqyasda Ermənistana xəbərdarlıq sayıla biləcək daha bir hadisə baş verib. Nüfuzlu "Global Firepower" təşkilatı 2019-cu ilin ən güclü ordularının siyahısı ilə bağlı hesabatını açıqlayıb.**

Hesabatda Azərbaycan ordusu ötən illə müqayisədə bir pillə irəliləyərək 137 ölkə arasında 52-ci yerə yüksəlib. Ermənistan yeni reytinqdə 12 pillə geriləyərək 96-cı yerdə qərarlaşıb, Gürcüstan isə 85-cidir. Buradan bir daha aydın görünür ki, regionda ən güclü ordunun sahibi qismində yenə Azərbaycan çıxış edir. Təbii ki, bu vəziyyətdə Qarabağ münaqişəsinin hərbi müstəviyə keçməsi halında nəticələrin necə olacağını əvvəlcədən təsəvvür etmək o qədər də çətin deyil. O da aydındır ki, İrəvan Qarabağ danışıqlarında konstruktiv mövqe nümayiş etdirməkdən yayınmaqda davam etsə, konfliktin çözümü mütləq şəkildə hərbi müstəvidə olacaq. Bunu ukraynalı politoloq Aleksey Voronenko da istisna etmir. O, bu prosesə geosiyasi amillərin də təsir göstərdiyini vurğulayır: "Bu gün Yaxın Şərqdə və Mərkəzi Asiyada siyasi dəyişikliklərin aktiv fazası müşahidə olunur. Məsələn, əvvəllər Cənubi Qafqaza ən böyük təsiri Rusiya göstərirdisə, artıq bu gün Türkiyə hesablaşmalı olduğumuz bir gücə çevrilir. Sözügedən fakt bu ilin sonuna qədər işğal altındakı rayonların bir hissəsinin azad edilməsi məsələsində Azərbaycanın aktivinə yazılır. Bakı minimal qüvvə sərf etməklə antiterror əməliyyatları başlaya və artıq bu ilin sonuna qədər bir neçə rayonu azad edə bilər. Bu gün Ermənistan Rusiyanın köməyi olmadan Azərbaycanın güclü ordusu ilə hətta bir neçə saat başa-baş döyüşmək iqtidarında deyil. İrəvanın isə Moskvadan kömək gözləməyinə dəyməz. Onsuz da Kreml hazırkı Ermənistan hakimiyyətinin anlaşılmaz mövqeyindən bezib. Burada isə üstəlik Türkiyə də Azərbaycanın tərəfindədir. Təbii ki, Paşinyana heç kim kömək edə bilməyəcək. Bütün dünya Bakının tərəfini tutacaq. Çünki burada söhbət Qarabağda müharibədən deyil, heç bir beynəlxalq hüquq normalarına zidd olmayan antiterror əməliyyatlarından gedir".

Belə əməliyyatların başlanacağı təqdirdə Rusiyanın Ermənistanı yalnız buraxması İrəvanın cəbhədə məğlubiyyətini qısa zaman kəsiyində reallaşdıracaq. Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov da bildirir ki, Moskva İrəvana əvvəlki münasibəti bəsləmir və bu şəraitdə hərbi, antiterror əməliyyatalrına start verilməsi Bakının lehinədir: "20 il əvvəl bəlli idi ki, erməni tərəfi müharibəsiz bizə torpaqları verməyəcək. Ancaq bizim gücümüz o səviyyədə deyildi. Neft kontraktları işləmirdi, ordumuzun inkişafı üçün maliyyə yox idi. O zaman ermənilərin üzərində üstünlük qazanmaq üçün potensialımız yox idi. Sadəcə, heç nədən daha çox itki verə bilərdik. Amma siyasət mürəkkəb şeydir. İndi vəziyyət dəyişib və müharibənin mümkünlüyü barədə boş yerə danışılmır. Biz dərk edirik ki, indiki Azərbaycan hərbi cəhətdən Ermənistanı qat-qat üstələyib. İkincisi, Rusiya artıq Ermənistandan çıxır. Gec və ya tez bu baş verəcək. Rusiyada güclü olan erməni lobbisi imkanları çərçivəsində bu prosesi ləngidir. Real müşahidəçilər baş verənləri görürlər və regionda baş verən proseslər də bunu göstərir. Ermənistanın yaranması və indiki vəziyyətə gəlməsinin səbəbi Rusiya imperiyasının Osmanlı imperiyası ilə rəqabət aparması olub. İndi Rusiya-Türkiyə əlaqələri inkişaf edir, əməkdaşlıq forması tapılır. Onların arasında olan əlaqələrdə daha Ermənistan kimi alətə ehtiyac olmur. Siyasət nə qədər pafoslu deklarasiya ilə ifadə edilsə də, real maraqlardan ibarət olur. Bu gün real maraqlara baxanda, bəlli olur ki, Ermənistan tarixi funksiyasını itirməkdədir. Hesab edirəm ki, bu mərhələ bizə imkan verəcək ki, ərazi bütövlüyümüzü bərpa edək".

Beləliklə, bütün bu qeyd edilənlər Qarabağ münaqişəsinin hərbi çözümünü istisna etmir və geosiyasi faktorlar, o cümlədən qardaş Türkiyənin regionda mövqelərinin güclənməsi də buna əlverişli şərait yaradır. Çox maraqlıdır ki, qeyd edilən məqam Ermənistanda da ciddi narahatlıq yaradır və Türkiyə amili xüsusi qabardılır. Məsələn, Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin katibi Artsrun Ovannisyan qeyd edir ki, Azərbaycan silah almaqda, Türkiyə ilə birlikdə təlimlər keçirməkdə və hərbi xarakterli bəyanatlar verməkdə davam edir. Onun sözlərinə görə, bu durumda cəbhədə vəziyyət nisbətən sakit olsa da, vəziyyətə nəzarət etmək lazımdır: "Aydındır ki, bəzi qısamüddətli gərginlikləri nəzərə almasaq, artıq heç olmasa ən azı 1-1.5 ildir ki, cəbhə bölgəsində sabit vəziyyətimiz mövcuddur. Digər tərəfdən Türkiyə-Azərbaycan təlimləri daha intensiv keçirilməyə, yaxud daha geniş nümayiş olunmağa başlayıb. Türkiyə bölgədə güclənməyə çalışır və bu da bizim maraqlarımıza ziddir".

Ermənistanın sabiq iqtidar partiyası olan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov da qeyd edir ki, İrəvanın yarıtmaz siyasəti bölgədə proseslərin daha sürətlə Bakını lehinə cərəyan etməsinə itmkan verir. Onun sözlərinə görə, baş nazir Paşinyanın yanlış xarici siyasəti Rusiyanın Türkiyənin bölgədə mövqelərini gücləndirməsinə imkan verir: "Amma görünən ödur ki, bunlar indiki hakimiyyəti düşündürmür. Elə bu səbəbdən hakimiyyətin başı yalnız siyasi terrorla daxildəki rəqiblərini susdurmağa yönəlib. Rusiyada qırımızı, Fransada yakobinçilərin terroru bunlardandır. Maraqlıdır ki, hər iki halda hədəf siyasi rəqiblərə qarşı terror olub. Bu şəxsləri bir halda əksinqilabi royalitlər, digər halda əks inqilabi ağlar paketinə qarışdırırdılar. Hər iki halda yeni hakimiyyətin hədəfi xarici deyil, daxili düşmən simasının formalaşdırılması olub.

Demək olar ki, Nikolun hakimiyyəti ələ keçirməsindən sonra Ermənistanda eyni şey baş verir. "Addım"çılar bizi qara elan etdilər. Daha sonra Qarabağda xəyanətkar qüvvələr axtarmağa başladılar. Hazırda isə daxili düşmən simasını Konstitusiya məhkəməsinə yapışdırırlar. Nikol Paşinyanın təşəbbüs göstərdiklərinə dövlətçiliyin dağıdılması deyə bir ad vermək olar. Bütün qanuni vasitələrdən istifadə edilməklə bunun qarşısı alınmalıdır. Sonra xalq olaraq başımıza döyəcəyik, amma o zaman artıq gec olacaq. Biz bu gedişlə tezliklə Qarabağı da itirəcəyik. Zəifləyən Ermənistana qarpış Azərbaycan hərbi əməliyyatlara çox tez başalya bilər və bu prosesdə ona regionda güclənməkdə olan Türkiyə də yardım edəcək".

Hazırda Cənubi Qafqazda Türkiyə yaxın müttəfiqi olan Azərbaycanla hər sahədə əməkdaşlığı inkişaf etdirir. Özü də əvvəllər olduğu kimi, Türkiyə və Azərbaycan başqa dövlətlərə qarşı hansısa addım atmaq məqsədi ilə deyil, regionda sülhü, barışı və əməkdaşlığı təmin etmək niyyəti ilə əlaqələri inkişaf etdirirlər. Türkiyənin Cənubi Qafqazda daha fəal mövqe tutması bütün regionun maraqlarına uyğundur. Cənubi Qafqazda iki türk dövlətinin əlaqələri bütövlükdə regionun sabitliyi, insanların rifahı və ölkələrin təhlükəsizliyinin təmin olunmasına xidmət edir. İndi bu prosesə Moskva tərəfindən də müvafiq şərait yaradılması gözlənilir. Çünki bu hal Rusiyanın da maraqlarına cavab verir və elə Ermənistanı da qorxudan budur.Rusiyalı politoloq Vitali Arkov qeyd edir ki, geosiyasi vəziyyət və yeni qüvvələr balansı regionda Ermənistanın mövqeyini getdikcə zəiflədir. Onun sözlərinə görə, bu hal İrəvana da yaxşı məlumdur, sadəcə Paşinyan hakimiyyətdən devriləcəyindən qorxaraq Qarabağ münaqişəsinin çözümü üçün əməli addımlar ata bilmir: "Rusiya, Azərbaycan, Türkiyə kimi regionda mühüm rol oynayan dövlətlərin mövqeyi yaxınlaşır və bu hal Qarabağ məsələsinə də təsirsiz ötüşmür. Xatırladım ki, Paşinyanın sələfləri son 20 ildən bir az artıq müddət ərzində Ermənistan cəmiyyətini Azərbaycana qarşı əhval-ruhiyyə ilə kökləyib. Və Paşinyan hakimiyyətə gələndə ümid var idi ki, o, "Qarabağ klanı" ilə əlaqəsi olmadığına və liberalyönümlü insan olduğuna görə, gözlənildiyi kimi, gərginliyi azaltmaq siyasətinə başlayacaq. Onun Azərbaycan prezidenti İlham Əliyevlə görüşləri zamanı verdiyi bəyanatlar və ilk görüşləri bunu təsdiq edirdi. Lakin biz indi başqa mənzərə görürük. Bunun da izahı var. Paşinyanın bütün bu hərbi ritorikası daxili auditoriyaya yönəlib. Paşinyanın və komandasının vədlərinə baxmayaraq, ölkədə sosial-iqtisadi vəziyyət pisləşir. Hələ orta əsrlərdən məlumdur ki, belə olan halda öz uğursuzluqlarının səbəbini xarici düşmənlərdə axtarmaq, bəzən isə müharibəyə başlayaraq iqtisadiyyatdakı bütün problemləri müharibənin üzərinə atmaq lazımdır. Başqa bir məqam da var. Moskva, Ankara və Nur-Sultan (keçmiş Astana) Azərbaycan və Ermənistan arasında sülhün bərqərar edilməsi üzrə iş aparır. Söhbət ərazilərin tədricən, əvvəlcə işğal olunmuş yeddi və ya beş rayonun qaytarılmasından gedir. Lakin biz bilirik ki, "Paşinyan layihəsi" Qərb yönümlüdür. Qərb isə Rusiya və Türkiyənin Qafqazda güclənməsini istəmir. Əgər İrəvan əraziləri qaytarsa, burada Ankaranın da xidməti olacaq. Mən indi Bakını demirəm, çünki bu, onsuz da aydındır. İndi İrəvanın bütün bəyanatları, qoşunların təmas xəttindəki bütün təxribatları Azərbaycanı cavab tədbirlərinə sövq etməyə yönəlib. Ermənistanda isə bunu aqressiya adlandıracaqlar. İrəvana hazırda irimiqyaslı olmayan, 2016-cı ilin aprel döyüşləri tipində müharibə çox lazımdır. Ermənistan tərəfi yenidən özünü qurban elan edəcək. Paşinyan üçün isə bu, xilas variantıdır". Ekspert hesab edir ki, məhz bundan sonra zəbt edilmiş ərazilərin qaytarılması prosesi başlanacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycan diplomatiya tarixində şair, yazıçı səfirlər, konsullar...

## *Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Abdulla, Xeyrəddin Qoca, Səyyad Aran, Hidayət və...*

**Tarixən ədiblər - şair və yazıçılar, eləcə də görkəmli fikir adamları Azərbaycan diplomatiyasında izlər qoyublar. Şair və yazıçıların konsul və səfir kimi fəaliyyətləri hər zaman diqqəti cəlb edir. Dünya təcrübəsində ədiblərin diplomatik fəaliyyəti ilə bağlı kifayət qədər nümunə var. Azərbaycan ədibləri arasında da diplomatlar yox deyil. Azərbaycan yazıçı və şairlərinin diplomatik fəaliyyətinin tarixi yüz ili aşır.**

Ölkəmizin diplomatiya tarixində iz qoyan yazıçılar, şairlər kimdir, onlar hansı ölkələrdə konsul və səfir vəzifəsində çalışıblar?

### Cümhuriyyətin Ukraynada və Türkiyədəki ilk səfiri olan Yusif Vəzir Çəmənzəminli...

Tarixçi-alim Həyat Məhərrəmova bizimlə söhbətində bildirdi ki, Azərbaycan peşəkar diplomatiyasının tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlayır. O qeyd etdi ki, 1919-cu ildə Əlimərdan bəy Topçubaşovun rəhbərliyi etdiyi Azərbaycan parlamenti nümayəndə heyəti Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq səviyyədə tanınmasına nail olmaq məqsədilə Parisə səfər edib və bu, Azərbaycanın müstəqilliyinin tanınması ilə başlayan diplomatiyamızın ilk uğurudur. Bunun nəticəsində Azərbaycan missiyası Paris Sülh Konfransının Ali Şurasına dəvət alıb və həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin qısa zaman ərzində fəaliyyət göstərməsinə və bir çox çətinliklərlə üzləşməsinə baxmayaraq, diplomatiyamızın səmərəli fəaliyyəti nəticəsində bir çox uğur əldə olunub.

Azərbaycanın ilk ədib diplomatlarının Azərbaycanın görkəmli yazıçıları, böyük fikir adamları Yusif Vəzir Çəmənzəminli və Əbdürrəhim bəy Haqverdiyev olduğunu deyən tarixçi bildirdi ki, diplomatik fəaliyyət göstərən Azərbaycan yazıçı və şairlərinin bu sahəyə verdiyi töhfələrin özü geniş bir dissertasiya mövzusudur. "Bu olduqca maraqlı bir mövzudur və demək olar ki, tarixşünaslığımızda bu barədə çox az tədqiqat aparılıb. Azərbaycan ədibləri, şair və yazıçılarının diplomatik fəaliyyəti olduqca maraqlı və dəyərli bir məsələdir. Tarixən Azərbaycanda rəsmi olmasa da, qeyri-rəsmi şəkildə ədiblər, mütəfəkkirlər başqa dövlətlərə elçi kimi göndəriliblər, dövlətin adından diplomatik danışıqlar aparıblar. Azərbaycanın peşəkar diplomatiya tarixinin 100 yaşı var. Yüz il əvvəl yaradılan diplomatiyamızda yazıçı və şairlərin də rolu az deyil. Doğrudur, diplomatik fəaliyyətlə məşğul olan yazıçı və şairlərin sayı çox deyil, amma fakt budur ki, qələm adamları da bu vacib və dövlətçiliyimiz üçün əhəmiyyətli olan sahəyə cəlb ediliblər. Azərbaycanın ədib diplomatlarından danışarkən, ilk növbədə, böyük Azərbaycan yazıçıları, fikir adamları Yusif Vəzir Çəmənzəminlinin, Əbdürrəhim bəy Haqverdiyevin adlarını çəkməliyik.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkəmizin Ukraynada diplomatik nümayəndəliyi yaradılıb və Cümhuriyyətin Nazirlər Şurası 1918-ci il sentyabrın 12-də Ukraynaya işlər vəkilinin göndərilməsi haqqında qərar qəbul edib.

1918-ci il noyabrın 1-də Mir Yusif Vəzirov (Yusif Vəzir Çəmənzəminli) Azərbaycan Hökumətinin Ukraynada diplomatik nümayəndəsi təyin edilib. Məlumatıma görə, elə həmin ay Yusif Vəzir Kiyevdə diplomatik fəaliyyətə başlayıb.

Onu da deyim ki, Yusif Vəzirin ulu babası da diplomat olub. Ulu babası Mirzə Əliməmmədağa Qarabağ hökmdarı İbrahimxəlil xanın nüfuzlu vəzirlərindən biri idi.

1797-ci ilin iyun ayında İran hökmdarı Qacar Şuşanı zəbt etdiyi zaman İbrahimxəlil xan tərəfindən Türkiyə dövlətinə yenicə səfir təyin olunan Mirzə Əliməmmədağanı dustaq etdirib qətlə yetirir. Bununla da Mirzə Əliməmmədağaya səfir olmaq qisməti olmur. Uzun illərdən sonra Türkiyədə səfirlik etmək Mirzə Əliməmmədağa nəslinin nümayəndəsi Yusif Vəzirə nəsib olur. Belə ki, o həm də 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədə ilk səfiri olur".

### Haqverdiyev Dağlılar Respublikasında və Ermənistanda səfir işləyib

Ə.Haqverdiyevin də diplomatik fəaliyyətinə toxunan tarixçinin verdiyi məlumata görə, böyük ədib Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkəmizin Dağlılar Respublikasında, sonra isə Ermənistanda səfiri olub. O, arxiv sənədlərinə istinadən bildirdi ki, Cümhuriyyət dövründə İrəvandakı diplomatik nümayəndə Məhəmməd Xan Təkinski olub. 1919-cu il yanvar ayının 29-da Məhəmməd xan Təkinskinin Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi, səfiri təyin edildiyini qeyd edən H.Məhərrəmovanın sözlərinə görə, M.Təkinskidən sonra görkəmli Azərbaycan yazıçısı və siyasi xadimi Ə. Haqverdiyev 1919-cu il avqustun 24-də Azərbaycan Respublikasının Ermənistanda diplomatik nümayəndəsi təyin edilib. "Bundan əvvəl Əbdürrəhim bəy Haqverdiyev Azərbaycanın Dağlılar Respublikasında diplomatik nümayəndəsi olub" - deyə bildirən tarixçi bu gün də Azərbaycan yazıçı və şairləri arasında diplomatik fəaliyyətlə məşğul olanların olduğunu xatırlatdı.

O vurğuladı ki, çağdaş Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri olan Hidayət Orucov (Hidayət) diplomatik fəaliyyət göstərir.

Qeyd edək ki, Hidayət Orucova 27 dekabr 2012-ci ildə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilib. Elə həmin gün Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasının Qırğızıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib və hazırda da sözügedən ölkədə diplomatik fəaliyyətini davam etdirir.

### "Azərbaycanda diplomatik fəaliyyət göstərən şair və yazıçılar dünən də olub, bu gün də var"

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, elmlər doktoru, tanınmış tarixçi-alim Vaqif Abışov da bizimlə söhbətində bildirdi ki, Azərbaycanın diplomat yazıçı və şairlərinin fəaliyyəti geniş şəkildə araşdırılmalıdır. "Sizin müraciət etdiyiniz mövzu yeni və orijinaldır, eyni zamanda da çox maraqlıdır.













***Həyat Məhərrəmova:** "Bu olduqca maraqlı bir mövzudur və demək olar ki, tarixşünaslığımızda bu barədə çox az tədqiqat aparılıb"*

***Vaqif Abışov:** "Azərbaycan yazıçı və şairlərinin diplomatik fəaliyyəti tariximizin çox mühüm səhifəsidir"*

Azərbaycan yazıçı və şairlərinin diplomatik fəaliyyəti tariximizin çox mühüm səhifəsidir. Azərbaycan yazıçıları arasında Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev Cümhuriyyət dövründə səfir işləyiblər. Sonrakı dövrlərdə şair-tərcüməçi Abbas Abdulla Azərbaycanın İstanbuldakı baş konsulu olub. Tanınmış yazıçı-dramaturq Xeyrəddin Qoca, eləcə də şair Səyyad Aran ayrı-ayrı illərdə Azərbaycanın İstanbuldakı baş konsulu vəzifəsində çalışıblar. Bu gün tanınmış yazıçı-dramaturq Hidayət Orucov Azərbaycanın Qırğızıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiridir. Bundan başqa, yazıçı Anarın yazıçı oğlu Tural Rzayev diplomatdır və Azərbaycanın Küveytdəki fövqəladə və səlahiyyətli səfiridir. Mərhum Xalq artisti Mikayıl Mirzənin oğlu Mətin Mirzə də diplomatik fəaliyyət göstərir, o da şairdir, yazır. Yəni Azərbaycanda diplomatik fəaliyyət göstərən şair və yazıçılar dünən də olub, bu gün də var".

Şair və yazıçıların diplomat kimi başqa ölkələrə göndərilməsinin tarixi səbəblərinə aydınlıq gətirən V.Abışov bildirdi ki, Cümhuriyyət dövründə diplomatik fəaliyyətlə məşğul olan ədiblər bu sahəyə nüfuzlu və geniş dünyagörüşə malik olduqları üçün təyin olunurdular. O vurğuladı ki, o dövrdə Azərbaycanın peşəkar diplomatiyası yenicə formalaşmaqda olduğu üçün, ilk səfirlər, diplomatlar kimi yazıçı və şairlər, fikir adamları irəli çəkilirdilər.

***İradə SARIYEVA***

# DİN-in qeydiyyatla bağlı əhaliyə zəruri müraciətini başqa-başqa istiqamətlərə yozanların yanlışı...

## Şəmsəddin Əliyev: "Hesab edirəm ki, bəzilərinin bunu başqa cür təqdim etməsi tam əsassızdır"

**Məlum olduğu kimi, Daxili İşlər Nazirliyinin (DİN) Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" qaydalarla bağlı məlumat yayıb. Sözügedən məlumata görə, Azərbaycan vətəndaşlarının olduğu yer üzrə qeydiyyatı "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunun tətbiqi haqqında Əsasnaməyə əsasən həyata keçirilir.**



Vətəndaşın olduğu yer üzrə qeydiyyatı yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmadan aparılır.

Bildirilib ki, yaşayış yerindən kənarda 60 gündən artıq müvəqqəti yaşamaq istəyən vətəndaş həmin yerə gəldikdən sonra 7 gün ərzində (istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü istisna olmaqla) internet üzərindən DİN Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin saytına daxil olmaqla olduğu yer üzrə qeydiyyata alınır.

Vətəndaş olduğu yerdən getdikdə, müvafiq icra hakimiyyəti orqanı onu olduğu yer üzrə qeydiyyatdan çıxarır. Olduğu yer üzrə qeydiyyat haqqında qanunvericiliyin pozulması İnzibati Xətalar Məcəlləsinin 563-cü maddəsi ilə inzibati məsuliyyətə səbəb olur: vətəndaşın olduğu yer üzrə qeydiyyatdan keçməməsinə, yaxud qeydiyyata alma və qeydiyyatdan çıxma qaydalarına əməl etməməsinə görə xəbərdarlıq edilir və ya otuz manat məbləğində cərimə edilir.

Ancaq qəribədir ki, DİN-in qeydiyyatla bağlı zəruri müraciətini bəziləri başqa cür yozub təqdim etmək istəyirlər. Sanki buna başqa cür don geydirməyə çalışırlar. Ancaq, əslində, sözügedən məsələdə qeyri-adi heç nə yoxdur. Yaşayış yerinin qeydiyyatı ilə bağlı əhaliyə müraciət tam normaldır və bunu başqa istiqamətə yozmaq kökündən yanlışdır. Bunun bir sıra müsbət əhəmiyyəti var. O üzdən, hər bir vətəndaş olduğu yer üzrə qeydiyyata düşməlidir.

Bəzilərinin bunu başqa cür yozmasını ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən "Polisə Dəstək" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyevin sözlərinə görə, bunu başqa cür yozmaq istəyənlər ciddi səhvə yol verirlər: "Bu cür yanaşmaların heç bir əsası yoxdur. Müəyyən insanlar var ki, DİN-in cinayətkarlıqla mübarizə siyasətinin formalaşdırılması və onun həyata keçirilməsi missiyasını görmürlər. Nazirlik, daxili işlər orqanlarının əməkdaşları bu məsələyə sırf cinayətkarlıqla mübarizə kimi baxır. Yanaşma ondan ibarətdir ki, vətəndaşların təhlükəsizliyi təmin olunsun, baş verə biləcək ictimai münasibətlərə zidd halların qarşısını almaq üçün bu tədbirlər görülməlidir. Vətəndaş yaşayış yerindən kənarda olursa, uzun müddət orada yaşayırsa, mütləq mənada onun həmin yerdə qeydiyyata alınması zəruridir. Çünki müəyyən hadisələr baş verə bilər, amma onu törədən subyektin şəxsiyyətini açmaq, müəyyən etmək çətinlik yarada bilər. Yaxud da onun şəxsiyyəti ilə bağlı məlumat əldə olunacaq, lakin yaşadığı və ya qeydiyyatda olduğu yerlə bağlı müəyyən zaman tələb olunduğundan, cinayətin "isti izlərlə" açılması məsələsi yubana bilər. Bütün bunların hamısı ictimai münasibətlərə zidd olduğundan, DİN-in əhaliyə belə bir müraciət etməsi tam normaldır. Hesab edirəm ki, bəzilərinin bunu başqa cür təqdim etməsi tam əsassızdır.

*"Müəyyən insanlar var ki, DİN-in cinayətkarlıqla mübarizə siyasətinin formalaşdırılması və onun həyata keçirilməsi missiyasını görmürlər"*

Bu cür cəfəng fikirlərə inanmaq olmaz. Çünki Konstitusiya üzrə dövlətin ali məqsədi vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasıdır. Həm də layiqli həyat səviyyəsinin təşkil olunmasından ibarətdir. DİN də dövlətin bu istiqamətdəki siyasətinin icra olunmasına, həyata keçirilməsinə çalışır. Çalışır ki, təhlükəsizlik, ictimai qayda təmin olunsun".

***Vidadi ORDAHALLI***

# Nazirliklərin nəzdində ictimai şuralar özünü doğruldurmu...



## Elçin Mirzəbəyli: "İctimai şuralara yanaşmada müəyyən qədər qüsurlar var"

**Məlum olduğu kimi, bir sıra nazirliklərin və komitələrin nəzdində ictimai şuralar fəaliyyət göstərir. Bu şuraların yaradılmasında məqsəd dövlət qurumları və ictimaiyyət arasındakı əlaqələri daha da yaxınlaşdırmaq, vətəndaşları narahat edən məsələləri həll etməkdir.**

Azərbaycan ictimaiyyətinin tanınmış insanlarının da təmsil olunduğu bu şuraların fəaliyyəti daim müzakirə mövzusudur. Nazirliklərin nəzdində fəaliyyət göstərən ictimai şuralar özünü doğuldurmu?

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, tanınmış politoloq Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə bildirdi ki, nazirliklərin nəzdində yaradılan ictimai şuraların fəaliyyəti ictimaiyyətin maraqlarına cavab verməlidir: "Nazirliklərin nəzdində olan ictimai şuraların eləsi var ki, onlar aktiv fəaliyyət göstərir, mütəmadi olaraq toplantılar keçirir, bu tədbirlər haqqında, burada müzakirə edilən məsələlər barədə ictimaiyyətə məlumatlar verirlər. Ancaq bu şuraların arasında məqsədi, məramı nədən ibarət olduğu bəlli olmayanlar da az deyil.

Düşünürəm ki, ictimai şuralara yanaşmada müəyyən qədər qüsurlar var. Bu ictimai şuraların nə üçün yaradıldığı faktoru üzə çıxmalıdır. Əslində, Azərbaycanda nazirliklərin nəzdində ictimai şuraların yaradılmasında məqsəd vətəndaş-məmur münasibətlərinin tənzimlənməsi və dövlət qurumlarının vətəndaşlar üçün daha açıq, daha şəffaf hala gətirilməsindən ibarətdir. Amma təəssüflər olsun ki, bəzi hallarda ictimai şuralarda yalnız bu və ya digər dövlət qurumunun xüsusi münasibət bəslədiyi insanlar təmsil olunurlar.

*"Bu şuraların arasında məqsədi, məramı nədən ibarət olduğu bəlli olmayanlar da az deyil"*

**Sonda isə bunun hər hansı bir effektiv nəticəsi ortaya çıxmır. Bu baxımdan, təbii, qüsurlu hallar da var. Amma bu mexanizmin Azərbaycan üçün yeni olduğunu və bu istiqamətdə zaman keçdikcə təcrübə qazanılacağını, problemlərin aradan qalxacağını düşünürəm" - deyə E.Mirzəbəyli qeyd etdi.**

***İradə SARIYEVA***

# Sovet dövrü Azərbaycan tarixinin altını üstünə çevirməyə ehtiyac var

**Tarixini bilməyən xalqın manqurtdan heç bir fərqi yoxdur. Xalqımızı 70 il öz hökmranlığı altında saxlayan bolşevizm hökumətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi siyasət bizi öz tarixi köklərimizdən ayırmağa, tariximizə, tarixi dövlətçiliyimizə, milli ideologiyamıza düşmən münasibət göstərməyimizə xidmət edirdi.**



***Firdovsiyyə Əhmədova:*** *"...tarixi ədalət bərpa edilməlidir"*

***Faiq Ələkbərli:*** *"Sovet dövründə ciddi təhriflərə, saxtalaşdırmaya məruz qalan Azərbaycan tarixi yenidən yazılmalı və bütün məsələlərlə bağlı aydın mövqe ortaya qoyulmalıdır"*

Təəssüf ki, Sovet imperiyasının başbilənləri öz tarixçilərimizin əli ilə 70 il tariximizi qara ləkələrlə "zənginləşdirdilər". Sovet dövründə Azərbaycan tarixi, demək olar ki, tamamilə saxtalaşdırıldı, əsl qəhrəmanlarımız bizə unutduruldu və onların əvəzinə qondarma qəhrəmanlar tanıdıldı.

1991-ci ildə öz müstəqilliyinə qovuşan Azərbaycan Respublikasının tarixşünaslıq elmi yenidən formalaşmağa başladı. Sovetlərin bizə düşmən kimi təqdim etdiyi xanların, dövlət xadimlərinin, tarixi şəxsiyyətlərin, əslində, gerçək kimlikləri, onların xalqımızın azadlığı uğrunda verdikləri mücadilələr tarixçilər tərəfindən üzə çıxarıldı. Bununla belə, yenə də müasir tarixşünaslıq elmi hələ də tam olaraq bolşevizm ideologiyasının təsirindən çıxa bilməyib və bəzi tarix kitablarda o ideologiyanın təsiri hiss olunmaqdadır. Hətta tarixçilərin verdiyi məlumata görə, son 10-15 ildə nəşr edilən bəzi tarix kitablarında Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar, Abbas Mirzə və digər böyük dövlət xadimlərimiz "qaniçən", "başkəsən", "işğalçı" kimi təqdim edilir. Məlumatlara görə, nəşr edilən VII cildlik Azərbaycan tarixi kitabında da bu əhval-ruhiyyənin izləri var. Təbii, bu da təəssüf doğuran haldır. Bu gün Sovet dövrü Azərbaycan tarixinin yenidən öyrənilməsinə, yazılmasına ciddi zərurət var. Hətta bəzi tarixçi-ailmlər hesab edirlər ki, həm qədim Azərbaycan dövlətlərinin, həm xanlıqların, həm də Cümhuriyyət dönəminin Sovet dövründə təhrifə uğramış səhifələrinə tamamilə yeni baxış formalaşdırılmalıdır.

Tarixçilər qeyd edirlər ki, İkinci Dünya Müharibəsində Azərbaycanın və azərbaycanlıların iştirakı məsələsinə yanaşmada da Sovet hökuməti xeyli təhriflərə yol verib. AMEA-nın Fəlsəfə İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərli bizimlə söhbətində bildirdi ki, Sovet dövrü Azərbaycan tarixinin yenidən yazılmasının tərəfdarıdır. O hesab edir ki, bu dövrdə tariximiz total şəkildə saxtalaşdırmaya məruz qalıb və tarixi şəxsiyyətlərimiz, dövlət xadimlərimiz düşmən kimi təqdim edilib. "Sovet dövründə Azərbaycanın dövlətçilik tariximizlə, tarixi dövlət xadimlərimizlə bağlı məlumatlar saxtalaşdırılıb. Sovet dövrü Azərbaycan tarixi yenidən yazılmalıdır. Artıq Sovet ideologiyasının təsirindən qurtarıb tariximizi milli ruhda yazmalıyıq. Çox təəssüflər ki, hələ də bir çoxu Sovet dövrünün təlqin etdiyi psixologiyadan və onun ideologiyasından tam xilas ola bilməyib. Məsələn, bu gün VII cildlik "Azərbaycan tarixi" kitabı var. Bu kitabın 6 cildi keçən əsrin 70-80-ci illərində yazılıb. Ancaq bu kitabın ilk cildi 90-cı illərin əvvəllərində nəşr edildi. O kitaba baxsanız görərsiniz ki, orada elə də böyük dəyişikliklər edilməyib. Orada da yenə Nadir şah Əfşar və Ağa Məhəmməd şah Qacar "başkəsən", "qaniçən" kimi təqdim olunur. Halbuki, belə olmalı deyil. Son dövrlər akademik Ramiz Mehdiyevin istər Nadir şahla, İstər Şah İsmayıl Xətai, istərsə də Ağaməhəmməd şah Qacarla bağlı yazdığı kitablarda bu yanaşmanı o da tənqid edir ki, artıq o dövrdən qurtulmaq və yeni milli ruhda yazmaq lazmdır. Ramiz Mehdiyevin kitablarında Nadir şah da, Qacar da, Abbas Mirzə də, onların qurduqları dövlətlər də müsbət istiqamətdə təqdim olunub və onlar türk ruhlu şəxsiyyətlər kimi verilib. Ancaq akademik səviyyədə nəşr olunan VII cildlik Azərbaycan tarixini oxuyarkən görürük ki, Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar və onların qurduqları dövlətlər mənfi planda verilib. Yəni demək istəyirəm ki, bu məsələlərə yeni yanaşma lazımdır. O VII cildlik "Azərbaycan tarixi" yığışdırılmalı və milli, obyektiv ruhlu yeni VII cildlik yazılmalıdır. Bu kitabı oxuyan tələbə və şagirdlər birinci cilddə oxuyurlar ki, Azərbaycan xalqı irandillidir, o birində isə Qafqazkökənli olduğu bildirilir. Üçüncü cilddə yazılır ki, Nadir şah və Qacar "başkəsən", "qaniçəndir". VII cildlik təəssüf ki, tədrisdədir. Bu kitabın 6 cildi 1997-1998-ci illərdə kiril əlifbası ilə çap olunub. Digər təəssüfləndirici hal ondan ibarətdir ki, 2007-2008-ci illərdə nəşrdə heç bir dəyişiklik edilmədən yenidən 25 min tirajla latın əlifbası ilə nəşr edilib. Mənə məlumat verdilər ki, VII cildlik latın əlifbası ilə nəşr edilən zaman Akademiyanın Tarix İnstitutuna çox qısa vaxt veriblər ki, dəyişiklik edib latın əlifbası ilə çapa buraxsınlar. Kiril əlifbası ilə çap olunan variant üzərində heç bir dəyişiklik edilmədən bu şəkildə çap edilib. 25 min nüsxə ilə çap edilən nəşr isə bütün ali məktəblərdə, kitabxanalarda var. BDU-da və digər ali məktəblərdə akademik səviyyədə çap olunan VII cildlikdən istifadə olunur. Eləcə də orta məktəblərdə. Bu nəşrləri oxuyan Azərbaycan xalqının övladı özünü orada tapa bilməz. Necə ola bilər ki, Nadir şahı, Qacarı, Abbas Mirzəni "qaniçən", "başkəsən" kimi təqdim edilsin? Bu sırf Sovet dövrünün təsiri ilə yazılan məqamlardır. Hesab edirəm ki, Sovet dövründə ciddi təhriflərə, saxtalaşdırmaya məruz qalan Azərbaycan tarixi yenidən yazılmalı və bütün məsələlərlə bağlı aydın mövqe ortaya qoyulmalıdır" - deyə müsahibimiz vurğuladı.

Tarix üzrə fəlsəfə doktoru, dosent, tanınmış tarixçi-alim Firdovsiyyə Əhmədova "Bakı-Xəbər"ə bildirdi ki, Sovet dövrü Azərbaycan tarixinin yenidən yazılması tarixi ədalətin bərpa edilməsinə xidmət edər. Bu dövrün tarixini yazmaqla bir sıra məqamlara yeni rakursdan baxmağın vacib olduğunu deyən F.Əhmədova hesab edir ki, müasir tarixçilər bu səhifələri yazarkən obyektiv mövqe tutmalıdırlar. "Ümumiyyətlə, istər Sovet dövrü tarixşünaslığı, istər əvvəlki dövrlər olsun, tarix yazılarkən həmin dövrün şərtləri nəzərə alınmaqla və tarix elminin, tarixşünaslığın prinsiplərinə, yəni tarixiliyə, obyektivliyə əməl olunmaqla yazılmalıdır. Yoxsa, hər dövrün ideologiyasına uyğun olaraq əvvəlki tarixə münasibət bildiriləcəksə, bu yenə növbəti konyuktura olacaq. Yəni onda biz heç zaman düzgün, obyektiv tarix yaza bilməyəcəyik. Ona görə də mövcud olmuş Sovet dövrünün ideologiyasına uyğun olaraq, istər Cümhuriyyət, istərsə də əvvəlki dövr tarixinə münasibətdə ideologiyaya sərf edən məqamlar qabardılırdı, yaxud da ona zidd olan məqamlar saxtalaşdırılırdı. Cümhuriyyət tarixinə münasibətdə təbii ki, belə təhriflərə yol verilirdi. Cümhuriyyət dövrü tariximiz müxtəlif epitetlərlə aşağılanırdı, hətta dövlət səviyyəsində heç o təqdim edilmirdi. Ona görə də Cümhuriyyətə münasibətdə, birmənalı olaraq, total saxtalaşdırma vardı və onun tarixi tamamilə təbliğ və tədris olunmurdu. Ümumiyyətlə, bu barədə danışılmırdı da. Dərsliklərdə o barədə məlumat da yox idi. Sadəcə, Müsavat hökuməti əksinqilabçı, kapitalist, "törtöküntü" bir qüvvə kimi təqdim olunurdu. Bu mənada, təbii ki, biz müstəqilliyimizi bərpa etdikdən sonra bütün ağırlığın məhz Cümhuriyyət dövrünə hədəflənməsi təsadüfi deyildi. Çüni sıfırdan başlayaraq həmin tarixi sənədlər əsasında yenidən yazmağa ehtiyac vardı və bu tələbatdan da irəli gələrək son illər ən çox müraciət edilən dövr Azərbaycan Xalq Cümhuriyyəti tarixidir. Amma bununla yanaşı, orta əsrlər dövrünə münasibətdən, əvvəlki mərhələlərdən və tarixi şəxsiyyətlərdən bəhs edərkən Sovet dövründə yenə də hansısa məqamlar ideologiyaya sərf edirdisə, o qabardılırdı. Məsələn, xalq qəhrəmanlarının başçılığı ilə həyata keçirilən xalq hərəkatları sinfi mübarizə kimi təqdim edilirdi. Yaxud da Nizami də daxil olmaqla, bizim dahi şairlərimizin əsərlərində məhz sosial ədalət prinsipi önə çəkilir, ədalətli şah obrazı təbliğ edilirdi. Yəni onların əsərlərində də sırf sosialist ideologiyasına yaxın olacaq məqamlar axtarılır, tapılır və o vurğulanır, qabardılır, olduqca şişirdilmiş halda təqdim olunurdu. Bu səbəbdən də Sovet dövründə yaradılan tarix bu quruluşun ideologiyasına sərf edən bir tarix idi. Stalin dövründə hətta tarixi pyeslərin belə korrektura, redaktə olunmasında şəxsən Stalinin özü iştirak edirdi. Stalinin əli ilə üzərində qeydlər olan həmin tarixi sənədlər toplusu da işıq üzü görüb. Mən hələ tarixi sənədləri, protokol və stenoqramları demirəm. Bu tarixdə belə bir konyuktur yanaşma obyektiv ola bilməz. Amma biz müstəqillik dövründə təbii ki, o səhvləri bilirik və nəzərə almalıyıq, adekvat olaraq onun əksinə olan konyuktur mövqe tutmamalıyıq".

F.Əhmədovanın sözlərinə görə, tarix olduğu kimi yazılmalıdır. Tarixşünaslığın daha çox subyektivliyə məruz qalan bir elm olduğunu deyən F.Əhmədovanın dediyinə görə, burada müəllifin dünyagörüşü, münasibəti, istər-istəməz, öz rolunu oynayır. "Amma tarixin ümumi qəbul olunmuş qayda və prinsipləri, fəlsəfəsi, yanaşma tərzi, kateqoriyaları var. Ona görə də bu konsepsiyaları nəzərə alaraq biz əvvəlki tariximizi də, son dövr tariximizi də, müasir tariximizi də konyukturadan uzaq yazmalıyıq. Əks təqdirdə bizim yazdığımız tarix, tarixşünaslığımız dünya elmi tərəfindən qəbul olunmayacaq".

Sovet dövrü tarix kitablarında, hətta müasir dövrdə yazılan analoji nəşrlərdə Azərbaycanın dövlət xadimlərinin "qaniçən", "başkəsən" kimi təqdim edilməsi iddialarına münasibət bildirən F.Əhmədovanın fikrincə, Azərbaycanın xanlıqlar dövrünü yazarkən burada obyektivlik mütləq mənada gözlənilməlidir. "Hansısa bir dövlət xadimimiz haqqında "başkəsən", "qaniçən" kimi fikirlər yer alıbsa, bu o demək deyil ki, həmin şəxslərdən Milli Qəhrəman obrazı yaratmaq lazımdır. Yəni Sovet dövründə "düşmən" kimi təqdim edilən şəxsiyyətləri indi Milli Qəhrəmana çevirməyin özü də onun tam tərsi olan konyukturadır. İstər Nadir şah, istər Qacar, istərsə də başqaları olsun, şəxsiyyətləri öz dövrünün şərtləri çərçivəsində, onların fəaliyyəti olduğu kimi göstərilməli, motivləri şərh olunmalıdır. Tarixçi nə vəkillik, nə də ittihamçı mövqeyində dayana bilməz. Tarixçi elm adamıdır və bu kimi məsələlərə elmi cəhətdən yanaşmalıdır. Münasibət bir neçə müstəvidə ola bilər. Buna ideoloji, siyasi və elmi müstəvidə yanaşılır. Əgər elmi müstəvidə münasibət bildirilirsə və burada ideoloji, siyasi qatqı olacaqsa, artıq o elmi yanaşma olmayacaq. Ona görə də istər VII cildlik Azərbaycan tarixi, istərsə də ayrı-ayrı monoqrafiyalar olsun, burada tarixçinin prinsipial mövqeyi, elmi yanaşma öz əksini tapmalıdır. "Sovet dövründə bu şəxsiyyətlər qəhrəmandırsa, onlar indi düşmən sayılmalıdır, yaxud, əksinə, düşmən idisə, qəhrəman kimi təqdim olunmalıdır" yanaşması düzgün deyil".

Sovet tarixşünaslığında Azərbaycanın və azərbaycanlıların İkinci Dünya Müharibəsində iştirakı səhifəsində də müxtəlif saxtalaşdırma və təhrifləri də təhlil edən F.Əhmədova bildirdi ki, bu məsələyə də yeni yanaşma tələb olunur. "Təbii ki, bu məsələdə də ideoloji yanaşmalar olub. Nəin ki, ideoloji yanaşma, hətta SSRİ-nin İkinci Dünya Müharibəsində müttəfiqlərinin də münasibəti mübahisəli bir məsələ kimi müzakirə edilir. Bilirsiniz ki, həmin dövrdə ABŞ və İngiltərə SSRİ-nin müttəfiqləri idilər. Hələ də o mübahisələr gedir ki, SSRİ-nin faşizm üzərində qələbə çalmasında hansı müttəfiq dövlətin mövqeyi daha üstün olub və sair. O cümlədən də İkinci Dünya Müharibəsində azərbaycanlıların iştirakı məsələsi də həmin dartışdırılan məsələlərdəndir. Azərbaycanlıların İkinci Dünya Müharibəsində göstərdikləri fədakarlıqlar, mübarizəsi, həm maddi, həm də canlı qüvvə baxımından verdikləri qurbanlar təkcə Azərbaycan tarixşünaslığında deyil, dünya tarixşünaslığında da öz əksini tapmalıdır. Bunun üçün də biz bu məlumatları daha səhih sənədlərə əsasən təqdim etməliyik ki, qarşı tərəfdən bizə heç bir irad bildirilməsin. Yaxud da legionerlərimizin İkinci Dünya Müharibəsində əks tərəfdən Sovet dövlətinə qarşı mübarizə aparması da yenidən araşdırılmalıdır. Bunların hamısının üzərindən sükutla keçməklə həllini tapa bilməz, yaxud da qarşılıqlı ittihamlarla ifadə oluna bilməz. Legionerlərin hansı motivlə həmin mübarizədə iştirak etmələri obyektiv göstərilməli, məramları nə idi, səhvləri nə idi, nəyin uğrunda mübarizə aparırdılar, onlar faşizmi dəstəkləyirdi, yoxsa yox? Yəni bunlar hamısı tariximizdə öz əksini tapmalıdır. Digər tərəfdən, Sovet İttifaqını öz vətəni bilib, onun uğrunda vuruşan azərbaycanlıları birmənalı düşmən kimi qələmə verməyin özü də yanlış münasibətdir. Ümumiyyətlə, 70 illik Sovet tarixinin hər bir səhifəsinə münasibətdə də, 70 illik tariximizi yazarkən də obyektiv yanaşma, baxış sərgilənməlidir. Eyni zamanda da Sovet dövründə əvvəlki dövrə bəslənən mənfi münasibət yenidən işlənməli, yazılmalıdır, tarixi ədalət bərpa edilməlidir. Yoxsa, bilirsiniz, akademik nəşrlərdir deyə ildən-ilə onları təkrarlayıb çap etmək düzgün yanaşma deyil" - deyə ekspert qeyd etdi.

***İradə SARIYEVA***

**Oktyabrın 1-10-da Azərbaycanda əhalinin növbəti siyahıya alınması keçiriləcək. Əhalinin siyahıya alınması periodik və mütəmadi keçirilməklə, ölkədəki müxtəlif qrupları müqayisə etməyə kömək edən prosesdir. Siyahıyaalma, həmçinin, həyat keyfiyyətinin qiymətləndirilməsində əsas məlumat mənbəyidir.**

# Azərbaycanda əhalinin yeni siyahıya alınması hansı problemləri həll edəcək...

## *Azad Abbasəliyev: "Sorğu və siyahıyaalma vərəqləri ayrı olacaq"*



Məlumdur ki, əhalinin siyahıya alınması əhali haqqında sistematik olaraq məlumatların əldə edilməsi və qeyd olunması prosesidir. Qədim dövrlərdən başlayaraq dövlətlər tərəfindən əhali haqqında məlumat əldə etməyə xüsusi diqqət yetirilib. Bunun əsas məqsədi əhalinin sosial, iqtisadi və demoqrafik strukturunu müəyyənləşdirmək və müəyyən zaman daxilində baş verən dəyişikliklərin qeyd edilməsi və tədqiqidir.

Əhalinin həyat keyfiyyətini tədqiq edən başqa sorğulardan fərqli olaraq, əhalinin siyahıya alınmasında ölkədəki bütün ev təsərrüfatları sorğu edilərək öz məlumatlarını təqdim edirlər. Bundan əlavə, növbəti illərdə əhalinin həyat keyfiyyətini tədqiq edən sorğular üçün daha effektiv seçmənin aparılması baxımından əhalinin siyahıya alınmasının nəticələri əvəzolunmaz mənbə hesab olunur.

Bu il keçiriləcək siyahıyaalma əvvəlkilərdən nə ilə fərqlənəcək və bunun ölkəmiz üçün hansı strateji əhəmiyyəti olacaq?

Dövlət Statistika Komitəsinin Siyahıyaalma qrupunun rəhbəri Azad Abbasəliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında" Prezidentin 2016-cı il 7 sentyabr tarixli, 1040 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" 2016-cı il 16 dekabr tarixli, 517 nömrəli qərarına uyğun olaraq, aidiyyəti dövlət qurumları tərəfindən hazırlıq işlərinə başlanıb: "BMT-nin tövsiyələrinə uyğun olaraq, siyahıyaalma hər 10 ildən bir aparılır. Məqsəd müxtəlif ölkələr üzrə müqayisəli rəqəmlərin əldə edilməsidir. Bəzən insanlar elə fikirləşirlər ki, əhalinin siyahıya alınması yalnız sayın müəyyən edilməsi üçündür. Bu belə deyil. Əhalinin sayını biz aylıq, illik olaraq müəyyən edə bilirik. Əvvəlki siyahıyaalmadakı baza rəqəminin üzərinə doğum gəlinir, ölüm çıxılır, eyni zamanda, miqrasiya saldosu nəzərə alınır. Nəticədə də biz aylıq və rüblük olaraq əhalinin sayında olan dəyişikliyi dəqiq müəyyən edə bilirik".

Qurum rəsmisinin sözlərinə görə, siyahıyaalma əvvəlki illərdən fərqlənəcək: "Siyahıyaalma prosesinə 43 min insan cəlb olunacaq. Artıq siyahıyaalma materialları hazırdır.

*"Sosial-iqtisadi inkişaf proqramlarının tərtib olunmasında belə məlumatlar çox böyük önəm daşıyır"*

Əhalinin sayına uyğun sorğu vərəqləri çap edilib. 28 bənddən ibarət sorğu vərəqlərində 46 sual üzrə 280-ə yaxın göstərici yer alıb. Əhalinin bu sorğulara tam, dolğun cavab verməsi mühüm əhəmiyyət kəsb edir. Sorğu vərəqlərində bəzi dəyişikliklər olub. Əvvəlkilərdən fərqli olaraq, budəfəki prosesdə əlilliyə dair məlumatların öyrənilməsi də daxil edilib. Məqsəd həm sağlamlıq imkanları məhdud olan uşaqların, həm də əlilliyi olanlarla bağlı məlumatları tam öyrənməkdir. Onların sayı müvafiq qurumlarda var. Biz, sadəcə, onlar barəsində digər məlumatların öyrənilməsini istəyirik. Onların ailə vəziyyəti, gəlirləri, təhsilləri barədə məlumatların əldə olunması nəzərdə tutulur. Sorğu və siyahıyaalma vərəqləri ayrı olacaq. Siyahıyaalma ev təsərrüfatları üzrə tərtib olunur. Orada ev təsərrüfatına daxil olan ailələrin və üzvlərin sayı müəyyən edilir. Siyahıyaalma vərəqində mənzil-məişət şəraitinə dair 6 sual nəzərdə tutulur. Sorğu vərəqində isə 46 sual olacaq. Bu vərəq hər bir respondent tərəfindən doldurulacaq. Hər bir şəxsin cinsi, yaşı, milli etnik mənsubiyyəti, vətəndaşlığı, ölkədaxili miqrasiyası, xarici və xaricdən olan miqrasiyanın səbəbi, daimi yaşadığı yer barədə məlumat, təhsil səviyyəsi, gəlir mənbəyi və s. üzrə məlumatlar toplanacaq".

Siyahıyaalmanın ölkəmiz üçün strateji əhəmiyyətindən danışan DSK rəsmisinin sözlərinə görə, başlıca məqsəd əhali barəsində dəqiq proqnozların təsbit edilməsidir: "Sonrakı illər üçün nəzərdə tutulan dövlət proqramlarının işlənməsi, proqnozların verilməsində bu məlumatlar önəmli rol oynayacaq. Bilirsiniz ki, sosial-iqtisadi inkişaf proqramlarının tərtib olunmasında belə məlumatlar çox böyük önəm daşıyır. Siyahıyaalmanın başlıca mahiyyəti budur. Biz bunun nəticəsində 280-ə yaxın göstərici əldə edəcəyik. Bu, az rəqəm deyil. Artıq bu istiqamətdə zəruri olan bütün işlər görülür. Siyahıyaalmanın təşkili və həyata keçirilməsi ilə bağlı heç bir problem olmayacaq. Uğurla prosesi başa vuracayıq".

*Məhəmmədəli QƏRİBLİ*

**Düzgün seçim uğurlu karyeranın başlanğıcıdır. Buna görə də abituriyentlər ixtisas seçimində diqqətli olmalıdırlar. Dünya ölkələrində texniki sahəyə aid olan ixtisaslar daha prestijli və uğurlu sayılır. Vaxtilə Azərbaycanda da texniki və humanitar ixtisaslara meyl edənlər üstünlük təşkil edirdi.**

# Müəllimlik Azərbaycanda ən rəqabətli ixtisasa çevrilməyə başlayır, ən savadlı uşaqlar müəllimliyi seçir

## *Məlahət Mürşüdlü: "Ötən illərdən fərqli olaraq, artıq yüksək bal toplayanlar pedaqoq olmaq istəyirlər, bu tendensiya getdikcə artır"*



Ancaq son illər bu sahədə vəziyyət dəyişib. Belə ki, müəllim işləmək istəyənlərin sayı ildən-ildə artır. Açıqlanan statistik rəqəmlərə əsasən, 55 minə yaxın şəxs müəllim işləmək üçün müraciət edib.

Təhsil naziri Ceyhun Bayramov media nümayəndələrinə açıqlamasında bildirib ki, son illər təhsil müəssisələrində daha bilikli, peşəkar müəllimlər fəaliyyət göstərirlər.

O, gənclərin ixtisas seçərkən müəllimlik peşəsinə üstünlük verdiklərini, ötən 2018-2019-cu tədris ilində ali təhsil müəssisələrində pedaqoji ixtisaslara qəbul olunanların göstəricilərinin kifayət qədər artdığını deyib: "Həmçinin, Azərbaycanın təhsil tarixində ilk dəfə 2090 nəfər abituriyent 500 və daha yuxarı bal toplayaraq məhz müəllimlik ixtisasına yiyələnib".

Pedaqoq olmaq istəyən gənclərin sayının artdığını ekspertlər də təsdiq edirlər.

Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü bizimlə söhbətində bildirdi ki, müəllimlik şərəfli peşədir: "Ötən illərdən fərqli olaraq, artıq yüksək bal toplayanlar pedaqoq olmaq istəyirlər. Bu tendensiya getdikcə artır. Müəllimlik peşəsinə

*"Orta məktəblərdə proqramların dəyişməsi, müəllimlərin məvacibinin artması, eyni zamanda, pedaqoqlara verilən imtiyazlar..."*

marağın artması olduqca müsbət haldır".

Həmsöhbətimizin sözlərinə görə, orta məktəblərdə proqramların dəyişməsi, müəllimlərin məvacibinin artması, eyni zamanda, pedaqoqlara verilən imtiyazlar sayəsində onlar öz peşəsinə daha yaradıcı yanaşırlar: "Müəllimlər repetitor fəaliyyəti ilə məşğul olmaq imkanına malikdirlər. Repetitor kurslarında müəllimlər həm öz peşəkarlıq səviyyələrini yüksəldir, həm də maddi durumlarını yaxşılaşdırırlar".

M.Mürşüdlü bildirdi ki, müəllimlik elə bir peşədir ki, bu sahəyə hər zaman ehtiyac duyulur və kadrlar iş sarıdan əziyyət çəkmirlər.

**Pedaqoqların iş sarıdan əziyyət çəkməməsi gənclərin qeyd olunan sahəyə maraq göstərməsinə səbəb olur: "Nəzərə almaq lazımdır ki, Azərbaycanda təhsilə önəm verilir. Bu səbəbdən də ölkəmizdə müəllimlik peşəsinə xüsusi qayğı göstərilməsi davam edəcək".**

*Günel CƏLİLOVA*

# Dünya səhiyyəsində uşaq qidaları ilə bağlı həyəcan siqnalı Azərbaycanda da eşidildi...

**Uşağını ana südü ilə qidalandıran analarla yanaşı, bunun əksini edənlər də var. Bəzən isə analar körpələrinə ana südü ilə yanaşı, uşaq qidalarından da verirlər. Bu gün satışda müxtəlif növ və qiymətə uşaq qidaları mövcuddur. Bu qidalar barədə zaman-zaman müxtəlif fikirlər səsləndirilir, onların uşaqlar üçün zərərli olduğu deyilir.**

***Vaqif Qarayev:** "Bazarda dəfələrlə vaxtı keçmiş uşaq qidalarına rast gəlinib"*

***Eyyub Hüseynov:** "Süni uşaq qidalarının tərkibində soya mövcuddur"*



Hətta bir sıra uşaq qidaları da var ki, onların tərkibində soya var, bunun isə GMO komponenti olduğu deyilir.

Bu günlərdə Ümumdünya Səhiyyə Təşkilatı da bu cür qidaların insan orqanizminə ziyanı haqqında bəyanat yayıb. Bəyanat Ümumdünya Səhiyyə Təşkilatının ekspertlərinin uşaq qidalarının analizləri əsasında hazırlanıb. Bəyanatda bildirilir ki, hazırda dünya bazarında və satışda istehlakçılara təqdim olunan uşaq qidalarının çoxunun tərkibi yaxşı deyil, uşaqlara faydasızdır. Onlarda yüksək konsentrasiyada şəkər olduğundan, uşağın ağız dadını və qida vərdişini dəyişir, onu şəkərə alışdırır.

Uşaq qidalarının tərkibinin keyfiyyətli olmaması haqqında dəfələrlə yerli mütəxəssislər də öz fikirlərini və narazılıqlarını bildiriblər. Ancaq buna baxmayaraq, hələ də istənilən dükan və aptekdə süni uşaq qidalarının satışına rast gəlmək mümkündür.

Pediatr Vaqif Qarayev bildirdi ki, bazarda dəfələrlə vaxtı keçmiş uşaq qidalarına rast gəlinib: "Nəzarət çox mühümdür. Qida Təhlükəsizliyi Agentliyi var. Uşaq qidaları saxlanma şəraitinə əməl olunmaqla satılmalıdır. Dərmanlarla onların eyni şəraitdə saxlanması doğru deyil. Ümumiyyətlə, qida təhlükəsizliyi istənilən ölkənin prioritet məsələsidir".

Həmsöhbətimiz onu da vurğuladı ki, uşaq yeməklərində izafi miqdarda şəkər var: "Ona görə də uşaqlara bu yeməkləri vermək olmaz. Əvvəllər uşaqlarda çəki azlığı var idi, indi isə artıq çəki problemi var. Dünya mətbuatı "fast-food"ların xərçəng xəstəliyi yaratdığı ilə bağlı həyəcan təbili çalır. Bizdə isə evdən kənarda adi kartof qızartmasını uşağa bəh-bəhlə verirlər. Həmin şəbəkəni Avropa ölkələrində qadağan ediblər".

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, süni uşaq qidalarının tərkibində soya mövcuddur: "Körpə qidalarının keyfiyyətində problemlərin olduğu istisna edilmir. Qanunda da göstərilir ki, körpə qidalarının üçüncü ölkədən idxalı qadağandır. Birbaşa istehsalçıdan alınmalıdır.

**Ancaq biz görürük ki, Azərbaycana 3-cü ölkələrdən uşaq qidaları idxalı baş verir. O körpə qidasının ki, tərkibində soya komponenti var, bu, GMO komponentidir. Mən özüm bir dəfə soya südünü içmişəm. Onu bir dəfə içən insan ayrılmaq istəmir. Xəfif şirin dadı olur. Bir sözlə, əhali bilməlidir ki, mümkün qədər körpə qidalarından uzaq durmaq lazımdır".**

***Günel CƏLİLOVA***

# Gəncədə kimsəsiz uşaqlara sahib çıxan daha bir təşkilat...

**Azərbaycan Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi, "Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin təşkilatçılığı ilə Gəncə şəhərində həyata keçirilən "Dekorativ-tətbiqi sənətdə uşaqların özlərini tapması" layihəsinin icrasına iyul ayının 15-dən başlanıb.**

***Lamiyə İsazadə:** "Uşaq evlərində yaşayıb ali təhsil ala bilməyənlər sonradan küçə həyatı yaşamağa məhkum olurlar"*




Təşkilatın sədri Lamiyə İsazadə qeyd edib ki, cəmiyyətin həssas üzvləri olan, valideyn himayəsindən məhrum olan uşaqların taleyi dinindən, irqindən asılı olmayaraq, hər kəsi narahat edir: "Onlar 18 yaşa qədər dövlətin himayəsində olsalar da, 18 yaşdan sonrakı həyatları bizləri daha çox narahat edir. Uşaq evində yaşayan uşaqların çox az hissəsi ali məktəblərə qəbul olub ali təhsil alır, öz həyatlarını sığortalayırlar. Bəs təhsil almayan uşaqların aqibəti necə olur?! Əgər həmin uşaqlar heç bir təhsilə, sənətə sahib deyillərsə, küçə həyatı yaşamağa məhkum olurlar. Bu cür xoşagəlməz halların qarşısını almaq üçün bu və ya buna bənzər layihələrin icrasını zəruri hesab edirik.

Hazırda icra etdiyimiz "Dekorativ-tətbiqi sənətdə uşaqların özlərini tapması" layihəsinin əsas məqsədi Gəncə şəhərində, valideyn himayəsindən məhrum olan, uşaq evlərində yaşayan uşaqlara Gəncə Gənclər Evində 3 aylıq dekorativ-tətbiqi sənət kursu təşkil olunub.

**Bu sənətə bədii şüşə sənəti, ebru (su üzərində rəsm), bədii tikmə sənəti (naxışların salınması) və s. aiddir. 3 aylıq kursun yekununda uşaqların əl işlərinin sərgisi Gəncə və Bakı şəhərlərində keçiriləcək.**

Uşaqlar kursa çox böyük həvəslə gəlib, sənət öyrənməyə çalışırlar. Onlara çox istedadlı, bacarıqlı, Gəncə Gənclər Evinin dekorativ-tətbiqi sənət müəllimi Sona Məhərrəmova dərs keçir. Fürsətdən istifadə edib Gəncə Şəhər Gənclər Evinin rəhbəri Amil Qurbanova uşaqlara göstərdiyi diqqət və qayğıya görə, təmənnasız yaratdığı şəraitə görə xüsusi minnətdarlığımızı bildiririk. Biz inanırıq ki, bu layihədən sonra uşaqlar bir daha əmin olacaqlar ki, onlar tək deyillər. Dövlətimiz, cəmiyyətimiz onlara nə qədər dəyər verir.

O zaman onlar özlərini atılmış deyil, cəmiyyətimiz üçün nə qədər gərəkli, dəyərli olduqlarını dərk edəcəklər".

***Baki-xeber.com***

# İndiyədək cəmi 116 yarımçıq binaya rəy verilib - prosesin ləng getməsinin səbəbləri...

**Prezidentin növbəti humanist addımı olaraq imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 19 fevral 2019-cu il tarixli, 529 nömrəli Fərmanının icrası ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi (FHN) və digər aidiyyəti dövlət qurumları tərəfindən görülən tədbirlər nəticəsində ötən 5 ay ərzində ümumi sahəsi 1 928 897 kv.m. olan 19551 mənzilli, ümumilikdə, 317 girişli 116 binaya (kompleksə) dair müsbət rəy verilib.**

*"...bürokratik əngəllərlə bağlı deyil"*

114-ü Bakı şəhəri, 1-i Abşeron rayonu, 1-i isə Gəncə şəhərində yerləşən bu binalara dair sənədlər komplektləşdirilərək, müvafiq qaydada onların istismara hazır olması barədə tərtib edilmiş rəy aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Abşeron Rayon və Gəncə Şəhər İcra hakimiyyətlərinə təqdim olunub.

Görünən odur ki, ölkə Prezidentinin çoxmənzilli yaşayış binalarının istismara qəbulu prosesinin asanlaşdırılmasına dair Fərmanının icrası prosesi ləng gedir. Azərbaycanda istismarına icazə verilmədən insanların məskunlaşdığı çoxmənzilli yaşayış binalarının və yaxud da komplekslərin sayı 470-dir. Bunun 413-ü Bakı ərazisində, qalan 57 bina isə Abşeron rayonunda, Sumqayıt, Gəncə, Lənkəran və Mingəçevir şəhərlərindədir. Fərmanın imzalanmasından ötən 5 ay ərzində cəmi 116 binaya istismar icazəsinin verilməsi onu göstərir ki, proses kifayət qədər ləng gedir. Hansı ki, ilk dövrlərdə müvafiq qurumlar bu işin sürətlə həyata keçiriləcəyini bəyan edirdilər. Yay ayına qədər həmin binaların yarıdan çoxuna müsbət rəy veriləcəyi gözlənilirdi. Ancaq qeyd edildiyi kimi, indiyə qədər 116 binaya dair müsbət rəy verilib. Maraqlıdır, sözügedən proses niyə ləng həyata keçirilir?

Məsələyə aydınlıq gətirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, prosesin yubanması daha çox binalar tikilərkən MTK-ların buraxdığı səhvlərlə bağlıdır: "Yəni onların vaxtında müvafiq qaydalara əməl etməmələri işi belə çətinləşdirir. Ölkə başçısının bu ilin fevralında bununla bağlı müvafiq Fərmanından sonra çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı müəyyən canlanma baş verdi. Bir sıra binalar dövlət reyestrinə qəbul edildi. Ancaq,

***Fuad İbrahimov:** "Bu işin yubanmasının başlıca səbəbi binalar tikilərkən MTK-lar tərəfindən buraxılan səhvlərdir"*



göründüyü kimi, ötən 4 ayda binaların çoxu barədə rəy verilməyib. Lakin bütün bunların səbəbi var. Yubanmanın səbəbi bürokratik əngəllərlə bağlı deyil. Bunun başlıca səbəbi sahibkarların bina tikərkən buraxdıqları səhvlərdir. Problem ondadır ki, binalar inşa edilərkən bir sıra texniki qaydalara əməl edilməyib. Bu gün aktual problemlərdən biri odur ki, binalarda yanğınsöndürmə sisteminin təkmilləşdirilməsi başa çatmalıdır. Ondan sonra binanın dövlət reyestrinə daxil edilməsi qanunauyğun sayılır. Məlum olur ki, sahibkarların günahı üzündən binalarda bununla bağlı çoxsaylı çatışmazlıq var. Ona görə də proses ləng gedir. Paytaxtda xeyli sayda binada yanğın təhlükəsizliyi ilə bağlı problemlərin aradan qaldırılması isə bir sıra səbəblərdən mümkün deyil.

Çünki ya binanı tikən MTK artıq mövcud deyil, ya da problemləri aradan qaldırmaq gücü yoxdur. Bu səbəbdən həmin binaların sənədləri verilmir. Ancaq dövlət orqanları tərəfindən bu yöndə səylər artıb. Deməyim odur ki, bu işin yubanmasının başlıca səbəbi binalar tikilərkən MTK-lar tərəfindən buraxılan səhvlərdir".

**Vidadi ORDAHALLI**

# Bölgələrimizdə ərəbləri 50 manata qarpız almağa kim məcbur edir ki...

**Azərbaycanda turizmin inkişafı üçün bir sıra addımlar atılır. Məsələn, dövlət proqramı qəbul edilir, bəzi ölkələrdə nümayəndəliklər açılır, təbliğat aparılır. Bütün bunlar ölkəyə daha çox turistin cəlb edilməsinə hesablanıb. Son illər bu sahədə görülən işlər öz bəhrəsini verməkdədir.**



***Elçin Rüstəmov:** "Turizm biznesdir, bu sahə ilə məşğul olanlar da qazanc əldə etmək üçün məhsulu yüksək qiymətə təklif edirlər"*

Belə ki, Azərbaycana ərəb ölkələrindən, Rusiya və Asiya ölkələrindən gələn turistlərin sayında artım müşahidə edilir.

Ölkəyə gələn turistlər paytaxt Bakı ilə yanaşı, bölgələrə də üz tuturlar. Bəzi hallarda bölgələrdə turistlərə, xüsusən də ərəblərə xidmətlər daha yüksək qiymətlərlə təklif olunur. Belə bir məlumat yayılıb ki, bəzi bölgələrdə ərəb turistlərə qarpız 40 manat, pendir isə 20 manat dəyərində satılıb. Bu halın Azərbaycan turizminə mənfi təsir edəcəyini bildirənlər də var. Ancaq ekspertlərin sözlərinə görə, dünyada belə bir qayda var ki, istənilən ölkədə turistə məhsullar maya dəyərindən bir neçə dəfə artıq satılır. Bu artıq qəbul olunmuş qaydadır.

Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bildirdi ki, ərəblər maddi durumu yaxşı olan turistlər sırasında yer alır: "Tək Azərbaycanda deyil, Avropanın istənilən ölkəsində ərəb turistinə satılan hər hansı məhsul bir neçə dəfə yüksək qiymətə təklif olunur. Ərəblərin özləri heç vaxt qiymətdən narazılıq etməyiblər. Onlara qiymət nə təklif olunursa, o məbləği də ödəyirlər. Bu cür turistlərin turizmdən daxil olan gəlirin artmasında xüsusi rolu var. Nəzərə almaq lazımdır ki, turizm biznesdir. Bu sahə ilə məşğul olanlar da qazanc əldə etmək üçün məhsulu yüksək qiymətə təklif edirlər. Onu da bildirim ki, heç kim ərəbə qarpızı 40 manata məcburi satmayıb.

*"Avropanın istənilən ölkəsində ərəb turistinə satılan hər hansı məhsul bir neçə dəfə yüksək qiymətə təklif olunur"*

Hər halda, qarpızın 40 manata turistə satılması şişirdilmiş rəqəmə oxşayır".

Həmsöhbətimiz onu da vurğuladı ki, yerli vətəndaşlarımız hansısa ölkəyə səfərə gedəndə onlar da eyni halla üzləşirlər.

Hətta qonşu Türkiyəyə belə istirahətə gedəndə adi dönər olduğu qiymətdən 5 dəfə artıq qiymətə azərbaycanlılara təklif olunur. Turist həmin qiymətə məhsulu alıb-almamaqda sərbəstdir.

**Günel CƏLİLOVA**

№ 130 (4028) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

26 İYUL 2019-cu il

www.baki-xeber.com



## Dünyanın ən dərin hovuzu...

**Polşa dünyanın ən dərin hovuzunu inşa edir. "AZƏRTAC" bildirir ki, hovuzun dərinliyi 45 metr olacaq.**

27 ədəd olimpiya baseyninin suyunu tutacaq hovuzun avqustda istifadəyə veriləcəyi nəzərdə tutulur. Hovuz dərinə dalma (dayving) idman növü ilə məşğul olanlar üçün düşünülüb. Həmçinin dərinlikdə qoruyucu şüşələr arxasında kafe, mehmanxana və konfrans zalları da inşa olunacaq ki, bu da idmançıların seyr etməyə imkan verəcək.

## "Nar" abunəçilərinin nəzərinə!

**06.08.2019 tarixindən etibarən, "Nar"ın günlük internet paketlərində dəyişikliklər olacaq.** Daha ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

## Elan

8 sentyabr 2019-cu il tarixdə, saat 10-da Şəmkir Şampan Şərabları ASC-nin Şəmkir rayonu, Sarıtəpə kəndində ümumi yığıncağı keçiriləcək. Gündəlik məsələ: illik hesabatın təqdim edilməsi. Üzvlərin iştirakı xahiş olunur.

*İdarə heyəti*

Şəki-Qayabaşı kənd sakini Bayramov Babək Allahverdi oğlunun və ailə üzvlərinin adına verilmiş 0070№li torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız hesab edilir.

Bayramov Asif Şakir oğluna Azərbaycan Respublikası XDMX tərəfindən 12.10.1996-cı ildə verilmiş BMİ №0177 müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

İbrahimov Rəşad İlqar oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, "Vişnyovka" bağlar massivində yerləşən №372 "A" bağın RXN№0900193 çıxarışı itdiyi üçün etibarsız sayılır.



## Koreyalılar yeni virtual reallıq əlcəyi yaratdı

**Koreya Elm və Texnologiyalar İnstitutunun mütəxəssisi Yunqsu Çanın rəhbərliyi ilə tədqiqat qrupu yüngül silikon virtual reallıq əlcəyi yaradıb.**

"ICTnews" bildirir ki, sahibinin dünyanın istənilən nöqtəsindən idarə edə bildiyi robot xilasedicilərin realistik əməliyyatlarda məşqlər üçün sistem, Niderland ordusunun hərbi qulluqçularının hazırlığı üçün platforma, insult keçirən xəstələr üçün əl hazırlamağa imkan verən oyun rolunu oynayır. Bütün bu layihələr bir cüt virtual reallıq eynəyi ilə işləyir. Əlcək istifadəçiyə vibrasiya sayəsində dünyada mövcud olmayan obyektləri hiss etməyə, toxunmağa, yerini dəyişməyə imkan verir. Əlcəyin köməyi ilə oyun həvəskarları virtual obyektin ölçü və formasını hiss edə bilərlər. Qurğuya ötürücü və icraedici mexanizmlər quraşdırılıb. On bir elastik pyezoelektrik ötürücü barmaq hərəkətlərini qeydə alaraq "Bluetooth" vasitəsilə virtual məkana ötürür. Virtual barmaq virtual obyektə toxunan zaman icraedici mexanizmlər siqnalı real barmağın ucuna göndərir. Batareya və qalvanik zəncir isə istifadəçinin biləyindəki kəmərə bərkidilib. Qurğunun sazlığı virtual şahmat oyununda sınaqdan keçirilib.

## Qadının mədəsindən pul və qızıl-zinət çıxardılar - Hindistanda

**Hindistanda maraqlı cərrahiyə əməliyyatı aparılıb. "Trend" xəbər verir ki, Qərbi Benqaliya ştatında cərrahlar 25 yaşlı qadının mədəsindən 1,5 kiloqram sikkə və qızıl-zinət əşyası çıxarıblar.**

Qadının psixi problemləri olduğu da qeyd edilib. Xəstənin anası isə hər dəfə evdən sırğa, bilərzik, qızıl zəncir itdiyini hiss etdiklərini bildirib. Lakin onlar itən qızıl-zinət əşyaları ilə bağlı qızlarından soruşduqda o ağlayıb, cavab verməyib. Yalnız əməliyyatdan sonra həmin qızılların yeri məlum olub.





**Qoç** - Yaradıcı iş, qeyri-standart yanaşma tələb edən məsələlərin həlli üçün əla gündür. Orijinal ideyaları gerçəkləşdirmək xoşunuza gəlir, cari işlər isə sizi yorur, darıxdırır. İşgüzar danışıqlar yaxşı keçir, yeni tanışlarınızda dərin təəssürat oyadırsınız.



**Buğa** - Günün ilk yarısında böhranları çözmək olar. Təsadüflərdən yararlanın. İrəliləyişi sürətləndirmək üçün aktiv olun. Yaxın ətrafınızdakı insanlarla təmaslarda fəal davranın. Riskli eksperimentə başlamaq olar.



**Əkizlər** - Peşəkar məsələlər xeyli güc tələb edir. Ancaq nə vaxtsa yardım etdiyiniz insanlar köməyinizə gələcəklər. İşləriniz çox olsa da, qeyri-formal ünsiyyət üçün də vaxtınız qalacaq.



**Xərçəng** - Günün ilk yarısında aktiv olun. Vəd etdiyiniz görüşü, müzakirəni, səfəri əsla təxirə salmayın. Tənbəllik və süstlüyü pərdələmək üçün bəhanələr uydurmayın. Yeni məlumatlar əldə etməyə çalışın.



**Şir** - Cari işlərə diqqət yetirmək çətindir: ürəyiniz böyük layihələr və möhtəşəm qələbələr istəyir. İddialı ideyalarınızı reallaşdıra bilərsiniz. Dəfələrlə hər şeyə qadir olduğunuzu sübut etdiyiniz adamlar bu işdə sizə yardımçı ola bilərlər.



**Qız** - Amplauni dəyişmək üçün yaxşı gündür. Maraqlı iş axtarırsınızsa, aktiv olun. Yeni ideyalardan biri irəliləyiş və gəlir vəd edir. Maneələri dəf etməkdən usanmayın. İlk cəhddən alınmayan işi başa vurun.



**Tərəzi** - Qarşınıza çıxan maneələri aradan qaldırmaq üçün var gücünüzlə çalışın. Səyahət, səfər, təhsil, məlumat və informasiya mübadiləsi üçün əlverişli zamandır. Problemləri qeyri-rəsmi toplantıda və görüşdə müzakirə etmək olar.



**Əqrəb** - Cari işlərin bəzilərini dostların və yaxınların yardımları ilə həll etmək mümkündür. Cari resurslardan effektiv istifadə edin. Ümumi ətalət, bilik və ideyalar qıtlığı problemlər yarada bilər.



**Oxatan** - Bir qədər öncə yaranmış problemlərin fəsadlarını aradan qaldırmaqda tənbəllik etməyin. Yeni gəlir mənbəyi olacaq. Yaxın ətrafınızdakı insanların yardımlarından istifadə edərək maneələri dəf edə bilərsiniz.



**Oğlaq** - Yeni işə, layihəyə başlaya bilərsiniz. Yeni gəlir, bilik, informasiya mənbələri arayın. Son xəbərlərdən agah olun. Məlumatsız qalmaq rəqiblər qarşısında zəif mövqelərlə könüllü razılaşmaq anlamına gəlir.



**Dolça** - Münasibətlərdə qeyri-formal motivlər güclənəcək. Kommunikasiyaları aktivləşdirin. İdeyalarınızı paylaşın, son xəbərləri öyrənin. Genişmiqyaslı layihəni inkişaf etdirmək olar.



**Balıqlar** - Parlaq, yaddaqalan, maraqlı hadisələrlə dolu gündür. İşləriniz artır, gərginlik çoxalır, amma bunların heç biri sizi tamamilə qorxutmur. Həm işdə, həm şəxsi həyatınızda ciddi dəyişikliklər mümkündür.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ən çox oxunan ikinci şeiri...

**Dünyanın ən böyük şeir portalı "Lyrikline"nin nəticələrinə görə, türk şairi Orxan Vəlinin "Anlatamıyorum" şeiri dünya üzrə ən çox oxunan ikinci şeiri seçilib. "Milli.Az" xəbər verir ki, bu barədə adıçəkilən portalın redaktoru Metin Celal məlumat verib.**

Onun sözlərinə görə, 84 dildə 1375 şairin 12312 şeiri və 18502 tərcüməsini paylaşan portal 1999-cu ildən fəaliyyət göstərir və 2002-ci ildən bəri UNESCO-nun himayəsindədir. Məlum olub ki, "Lyrikline" redaktorları hər il iyun ayında "Berlin Şeir Festivalı" çərçivəsində illik statistikaları açıqlayır. Bu ilin nəticələrinə əsasən, dünya üzrə ən çox oxunan şeir Orxan Vəlinin "Anlatamıyorum!", ilk sırada isə isveçli şair Herman Hesseden "Stufen" şeiri gəlir. Ən çox şeir oxunan ölkələr. 1. Almaniya. 2. ABŞ. 3. Türkiyə. 4. Böyük Britaniya. 5. Serbiya. 6. Avstriya. 7. İspaniya. 8. İsveçrə. 9. Rusiya. 10. Fransa.

*Hazırladı: Ramil QULİYEV*

**"Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları"ASC-nin yığıncağında təsdiq edilmiş 2018-ci il üçün maliyyə və təsərrüfat fəaliyyətinin illik hesabatı**

| | |
|---|---|
| **"Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları" ASC, VÖEN 9900017121** | |
| Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi 2 | |
| Hesabat ili ərzində cəmiyyətin təşkilati-hüquqi formasında dəyişikliklər olmamışdır | |
| Cəmiyyətin hüquqi şəxs olan səhmdarları yoxdur, fiziki şəxs olan səhmdarlarının sayı 150 nəfərdir | |
| Sonuncu illik balans 01.01.2019-cu ildə təsdiq edilmişdir. Müstəqil auditor yoxlaması "Caspian Audit Compani" MMC tərəfindən 2019-cu ilin mart ayında keçirilmişdir | |
| İl ərzində səhmdarların bir ümumi hesabat yığıncağı - 28.06.2019-cu il tarixdə keçirilmişdir | |
| Cəmi səhmlərin sayı 380654 ədəddir | |
| Hesabat ili ərzində səhmlərin emissiyası olmayıb, istiqraz buraxılışı olmayıb | |
| Kreditor borclar | 157 672,15 manat |
| Debitor borclar | 52 734,33 manat |
| Nizamnamə kapitalı | 1 141 963,00 manat |
| Əsas vəsaitlərin qalıq dəyəri | 819 715,85 manat |
| Realizə | 117 600,00 manat |
| ondan: | |
| icarə üzrə | 117 600,00 manat |
| mənfəət | 1 916,73 manat |

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.